


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

15 yanvar 2026-cı il, cümə axşamı
№ 008 (7075)
Qiymәti 60 qәpik


Milli azadlıqdan şirin nemət yoxdur!

# Mütləq qalib dövlət, mütləq qalib Ali Baş Komandan!



Bax səh. 7

# Azad Ağdərənin yeni siması

Bax səh. 7



## Dünya Bankının yeni proqnozu

Bax səh. 5

## Qəzza üzrə Sülh Şurası nə vaxt elan olunacaq?

Bax səh. 6

## Milli müdafiə sənayesi: 20 ildə keçilən uğurlu yol

Ölkəmizdə dövlət siyasətinin prioritetləri mövcud imkanlar və reallıqlar, eləcə də yaranan yeni çağırışlar nəzərə alınmaqla müəyyənləşir. Müstəqil Azərbaycanda qısa müddətdə müdafiə sənayesinin qurulması bunun əyani təsdiqidir. Bu istiqamətdə mövcud istehsal sahələrinin müasir standartlara uyğun təkmilləşdirilməsi, yenilərinin yaradılması üzrə işlər uğurla həyata keçirilir. Prezident İlham Əliyev bu günlərdə yerli televiziya kanallarına müsahibəsində respublikamızda müdafiə sənayesinin inkişafından, burada rəqabətqabiliyyətli məhsulların istehsalının mənimsənilməsindən məmnunluğunu bildirib və yeni hədəflərə diqqət çəkib.

Müstəqil Azərbaycanda son dərəcə vacib sahə olan müdafiə sənayesinin yaradılmasını və inkişafını şərtləndirən iki mühüm amilə xüsusi diqqət çəkmək istərdik. Bunlardan ən mühümü, heç şübhəsiz ki, daxili tələbatın ödənilməsi zərurəti ilə bağlıdır. Müdafiə Sənayesi Nazirliyinin (MSN) fəaliyyət istiqamətlərinə əsas etibarı ilə Dövlət Müdafiə Sifarişi Proqramına uyğun olaraq müdafiə təyinatlı məhsulların yaradılmasını, istehsalını...

Bax səh. 3



## 35-ci Ali Səviyyəli Toplantı...

Bax səh. 6

## BMT Azərbaycanla bağlı gözləntilərini açıqlayıb

Bax səh. 4



## G7-dən Ukraynanın təhlükəsizliyinə dəstək

Bax səh. 7

## “Azərbaycan Mədəniyyəti - 2040” Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası” təsdiq edilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 14-də “Azərbaycan Mədəniyyəti - 2040” Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası”nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb.

AZƏRTAC xəbər verir ki, Sərəncama əsasən, Mədəniyyət Nazirliyi Konsepsiyada nəzərdə tutulan tədbirlərin əlaqələndirilməsini həyata keçirəcək, nəzərdə tutulan tədbirlərin icra vəziyyəti barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat verəcək.

Konsepsiyada nəzərdə tutulan tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini Mədəniyyət Nazirliyinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirəcək.

# Mütləq qalib dövlət, mütləq qalib Ali Baş Komandan!

## Vətən müharibəsi milli iradənin gücü, dövlət qətiyyətinin sarsılmazlığı və tarixi ədalətin bərpası idi

Tarix xalqların taleyini müəyyən edən əsas göstəricilərdən biridir. O, keçmişi özündə əks etdirməklə yanaşı, həm də gələcək üçün strateji yol xəritəsini müəyyən-



ləşdirir. Azərbaycan xalqının təxminən son 200 illik tarixinə nəzər saldıqda, bu yolun əsasən məşəqqətlərlə, işğallarla, haqsızlıqlarla müşayiət olunduğunu görürük. Torpaqlarımızın mərhələli şəkildə əlimizdən alınması, son 100 ildə milyonlarla azərbaycanlının doğma yurd-yuvasından didərgin salınması, beynəlxalq hüququn kobud şəkildə tapdalanması uzun illər xalqımızın üzləşdiyi əsas faciələr olub.

Lakin bu acı tarix 2020-ci ildən etibarən köklü şəkildə dəyişdi. Son 6 il Azərbaycan tarixində zəfər dövrü kimi yadda qaldı. Azərbaycan dövləti öz gücünə, öz xalqına və öz liderinə arxalanaraq 30 illik işğala son qoydu. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə aparılan Vətən müharibəsi yalnız hərbi əməliyyatlar toplusu deyildi - bu, milli iradənin, dövlət qətiyyətinin və tarixi ədalətin bərpası idi.

Azərbaycan bu qələbəsi ilə bütün dünyaya sübut etdi ki, beynəlxalq hüquq kağız üzərində deyil, real güc və siyasi iradə ilə təmin olunduqda işlək mexanizmə çevrilir. Bir xalqın 30 il ərzində səbrlə apardığı mübarizə, düzgün zamanlama və dəqiq strategiya nəticədə mütləq qələbə ilə başa çatdı.

**Şəhidlərimizin əziz xatirəsini qəlbimizdə əbədi yaşadacağıq**

İşğal altında olan torpaqlarımızın azad edilməsi asan əldə olunmadı. Bu qələbənin təməlində şəhidlərimizin qanı, qazilərimizin sağlamlığı, əsgər və zabitlərimizin misilsiz qəhrəmanlığı dayanır. Döyüş meydanında hər qarış torpaq uğrunda canından keçən Vətən övladları Azərbaycan tarixində əbədi iz buraxdılar. Onların göstərdiyi şücaət təkcə hərbi bacarıq deyil, yüksək vətənpərvərlik nümunəsi idi. Bu gün azad edilmiş ərazilərdə həyat yenidən canlanırsa, şəhər və kəndlər bərpa olunursa, üçrəngli bayrağımız doğma torpaqlarda qürurla dalğalanırsa, bu, şəhidlərin fədakarlığının nəticəsidir. Azərbaycan dövləti hər zaman şəhidlərin xatirəsini uca tutur, onların ailələrinə və qazilərə xüsusi diqqət və qayğı göstərir. Bu siyasət dövlətin öz qəhrəmanlarına verdiyi dəyərin bariz göstəricisidir. Şəhidlərin xatirəsi xalqımızın yaddaşında əbədi yaşayacaq. Onların canı bahasına qazanılan bu zəfər Azərbaycan tarixinin ən şanlı səhifələrindən biridir və gələcək nəsillər üçün əsl vətənpərvərlik dərsidir. Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 13-də Ağdərə rayonunun Aşağı Oratağ kəndində Aşağı Oratağ, Çıldıran, Heyvalı və Çapar kəndlərinin sakinləri ilə görüşündə bildirib ki, şəhidlərimizin Onların qanı, canı bahasına, qəhrəman döyüşçülərimizin şücaəti, rəşadəti hesabına biz bu gün bu torpaqlardayıq: “Biz şəhidlərimizin əziz xatirəsini qəlbimizdə əbədi yaşadacağıq. Onu da bildirməliyəm ki, şəhidlərimizin qanını artıq biz döyüş meydanında aldıq. Onların qanı yerdə qalmayıb. İşğal dövründə dəfələrlə bu sözləri biz eşitmişik, işlətmişik və bu arzularla yaşamışıq”.




**Biz böyük xalq olaraq buna nail olduq...**

Vurğulandığı kimi, Ermənistanın 30 il ərzində Azərbaycan torpaqlarını işğal altında saxlaması beynəlxalq hüququn açıq şəkildə pozulması idi. Buna baxmayaraq, dünya birliyi uzun illər bu fakt qarşısında susqunluq nümayiş etdirdi. Bəzi hallarda isə işğalçıya dolayısı və ya açıq dəstək göstərildi. Bu ikili standartlar Azərbaycan xalqını məyus etsə də, onu yolundan döndərə bilmədi. Rəsmi Bakı bütün bu illər ərzində problemin sülh yolu ilə həllinə üstünlük verdi. Danışıqlar aparıldı, beynəlxalq tribunalarda haqq səsimiz çatdırıldı. Lakin qarşı tərəfin destruktiv mövqeyi və təxribatları sülh imkanlarını tam tükəndirdi. Nəticədə Azərbaycan öz haqqını döyüş meydanında bərpa etmək məcburiyyətində qaldı. Vətən müharibəsində qazanılan qələbə bütün Azərbaycan xalqının qələbəsi idi. Bu, Ali Baş Komandanın qətiyyətli və düşünülmüş siyasətinin, xalqın birliyinin məntiqi nəticəsi oldu. Azərbaycan son 80 ildə müharibəni mütləq qələbə ilə başa vuran nadir dövlətlərdən biri kimi tarixə düşdü. Dövlət başçısı sakinlərlə görüşdə bildirib ki, torpaqların itirilməsi, böyük sayda şəhidlərin şəhadətə ucalması - bütün bu ədalətsizliklər bizi xalq olaraq çox incidirdi, ancaq bizi sarsıtmadı. Biz əyilmədik, iradəmizi göstərdik və döyüş meydanında həm şəhidlərimizin qisasını aldıq, həm də torpaqlarımızı qaytardıq: “Son 80 il ərzində Azərbaycan kimi tam və mütləq Qələbə qazanan ikinci ölkə olmayıb. Müharibələr olub, münaqişələr olub, bu gün də davam edir. Amma heç biri tam və mütləq Qələbə ilə nəticələnməyib. Ancaq biz böyük xalq olaraq buna nail olduq, özü də cəmi 44 gün ərzində. Ondan sonra da bir gün ərzində”.



**Biz Zəfər yürüşümüzü iki mərhələyə bölərək cavanlarımızı qoruduq**

Azərbaycanın döyüş meydanında qazandığı uğurlar diplomatik masada da möhkəmləndirildi. 10 noyabr tarixində imzalanan kapitulyasiya aktı Ermənistanın məğlubiyyətini rəsmiləşdirdi. Bu sənədin nəticəsi olaraq üç rayonun bir güllə atılmadan azad edilməsi mümkün oldu. Bu, hərbi güclə yanaşı, siyasi uzaqgörənliyin və rasional qərarların nəticəsi idi. Ağdam, Kəlbəcər və Laçın rayonları bir güllə atılmadan azad olundu. Bu proses, Azərbaycanın hərbi gücü, strateji planlaşdırması və diplomatiya sayəsində işğal altında olan ərazilərin işğalçılardan təmizlənməsini təcəssüm etdirirdi. Prezident İlham Əliyevin apardığı siyasət göstərdi ki, müharibə yalnız silahla deyil, ağılla və diplomatiya ilə qazanılır. Azərbaycan itkisiz şəkildə ərazilərini geri qaytardı, regional reallıqları dəyişdi və beynəlxalq arenada mövqelərini daha da möhkəmləndirdi. Ölkə Prezidenti sakinlərlə görüşdə deyib ki, biz şanlı Zəfərimizi, Zəfər yürüşümüzü iki mərhələyə bölərək həm də cavanlarımızı qoruduq. Çünki əgər 2020-ci il noyabrın 10-da müharibə dayanmasaydı, bəlkə də minlərlə şəhid verməli olacaqdıq: “O cümlədən bax burada, bu dağlarda, Ağdərə dağlarında, Kəlbəcər dağlarında, Laçın dağlarında, Ağdamın minalanmış zolaqlarında minlərlə şəhid verə bilərdik. Biz onları qoruduq, onları qurban vermədik. Ancaq bilirdik ki, gün gələcək və biz bütün Qarabağı qaytaracağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik, mənfur düşməni torpaqlarımızdan qovacağıq və tam Qələbə qazanacağıq. İndi də burada, - bir tərəfdə şəhid anası, bir tərəfdə ağbirçək, - sizinlə bərabər durmuşuq. Bu, çox xoşbəxt bir hissdir, xoşbəxt bir gündür, gözəl bir gündür”.

**Milli birlik, siyasi iradə və düzgün strategiya...**

Azərbaycanın qazandığı tarixi qələbə ölkəmizin yeni inkişaf mərhələsinin əsasını qoydu. Bu zəfər güclü dövlətçilik, müasir ordu və mütləq qalib Ali Baş Komandan vəhdətinin real təcəssümüdür. Azərbaycan artıq yalnız öz torpaqlarını azad etmiş dövlət deyil, regionda yeni siyasi reallıqlar yaradan güc mərkəzidir.

Bu qələbə sübut etdi ki, milli birlik, siyasi iradə və düzgün strategiya olduqda heç bir işğal əbədi ola bilməz. Azərbaycanın zəfər yolu davam edir və bu yol tariximizdə əbədi qalacaq.

*Pərviz SADAYOĞLU*

*Mübariz ABDULLAYEV*

# Azad Ağdərənin yeni siması

Azərbaycan işğaldan azad olunmuş ərazilərin bərpasında da dünyaya nümunə göstərir. Üç onilliyi əhatə edən işğal dövründə təcavüzə məruz qalmış ərazilərdə erməni vandalları tərəfindən hər şey tar-mar edilib və talanıb. Postmüharibə dövründə isə qalib Azərbaycan işğalın ağır fəsadlarını aradan qaldırır, azadlığına qovuşan şəhər və kəndləri yenidən qurur. Artıq bu yerlərə həyat qayıdır, göz önündə yeni bir Qarabağ formalaşır. Bu günlərdə Prezident İlham Əliyev işğaldan azad olunmuş ərazilərə növbəti səfəri çərçivəsində daha bir şəhərin - Ağdərənin Baş planı ilə tanış olub və Özünün dəyərli tövsiyələrini verib.





**İşğal illərində əldən-ələ keçən Ağdərə**

Ağdərə rayonu 8 avqust 1930-cu ildə təşkil edilib və 1923-cü ildə qeyri-qanuni yaradılmış keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin  tərkibində olub. Eyniadlı rayon mərkəzi 1985-ci ildə şəhər statusu alıb. Ağdərə şəhəri bir çox ərazilərimiz  kimi, Birinci Qarabağ müharinin başlanğıcında erməni hərbçilərinin nəzarəti altına keçib. 1992-ci ildə Silahlı Qüvvələrimizin hücumu nəticəsində iyulun 4-də erməni işğalçılarından azad edilib. Bundan sonra bir il boyunca şəhər ətrafındakı kəndlərdə və yüksəkliklərdə aramsız döyüşlər gedib. Lakin AXC-“Müsavat”  iqtidarı Ağdərənin də müdafiəsini təşkil edə bilməyib. 1993-cü ildə Azərbaycanda 4 iyun Gəncə qiyamı baş verib. Qarabağ cəbhəsində döyüşən orduya rəhbərlik edən Surət Hüseynov  mərkəzi hakimiyyətə qarşı qiyam edərək Bakıya doğru hücuma keçib. Onun rəhbərlik etdiyi ordu bölmələri ön xətdəki mövqelərini qoyaraq qiyama qoşulublar. Bundan xaincəsinə istifadə edən ermənilər 27 iyun 1993-cü ildə Ağdərə şəhərini yenidən işğal altına alıblar.

Qeyd edək ki, Ağdərə rayonu inzibati ərazi vahidi kimi 1992-ci ildə ləğv olunub və onun ərazisi Kəlbəcər, Tərtər və Ağdam rayonları arasında bölüşdürülüb.

Ermənilər 30 illik işğal illərində digər ərazilərimizdə olduğu kimi, Ağdərə rayonunda da bir sıra özbaşınalıqlara əl atıblar. Belə ki, tarixi yer adları dəyişdirilib. Həmçinin burada beynəlxalq konvensiyalara zidd olaraq qeyri-qanuni məskunlaşma aparılıb ki, bu da ən ağır müharibə cinayətlərindən biri sayılır.

Ermənilər işğal dövründə Ağdərə rayonunun ərazisində də qanunsuz iqtisadi fəaliyyətlə məşğul olublar. İşğaladək rayonda 75059 hektar meşə sahələri var idi ki, bu da ərazinin 44 faizini təşkil edirdi. Ağdərə rayonunda, Tərtər çayı vadisində Şərq çinarı meşəliyi xüsusi olaraq qorunurdu. Ağdərə rayonu həmçinin faydalı qazıntı ehtiyatları ilə zəngin diyardır. Burada böyük qızıl və mis ehtiyatlarına malik Qızılbulaq yatağı var idi.  Mehmana yatağında sənaye ehtiyatları 37,3 milyon ton dəyərləndirlən qurğuşun, 40,4 milyon ton olan  sink resursları cəmləşmişdi. Rayonun ərazisində həmçinin ehtiyatları 100 milyon ton dəyərləndirilən Dəmirli mis yatağı, Canyataq-Gülyataq qızıl yataqları vardı. Eyni zamanda, Ağdərə, Şorbulaq-I, Şorbulaq - II mişar daşı yataqları, Ağdərə gəc yatağı düşmənlərin əlinə keçdi.



İşğal olunmuş ərazilərimizin qızıl yataqları bir qayda olaraq ABŞ-nin, Kanadanın, İsveçrənin, Fransanın iş adamları tərəfindən talan olunub. Ağdərənin Mehmana mis yatağı xarici investorlara  satılıb. 2011-ci ildə Ermənistanın Azərbaycanın işğal altındakı ərazilərində yeraltı təbii sərvətlərin talan edilməsinə dair daha bir planı açıqlanıb. Düşmən ölkənin o vaxtkı energetika və təbii ehtiyatlar naziri Armen Movsisyan Ermənistan İctimai Televiziyasına verdiyi müsahibədə bildirib ki, Ağdərə rayonundakı daş kömür yataqlarında ehtiyatların həcmini araşdırmaq üçün tədqiqat işləri gedir. Onun sözlərinə görə, işlərin hələ başa çatmamasına və bir neçə il davam edəcəyinə baxmayaraq, artıq indidən aydındır ki, Dağlıq Qarabağda daş kömür ehtiyatları İrəvan İstilik Elektrik Stansiyasının köhnə enerji blokunu yenidən işə salmaq üçün yetərlidir.

**Ağdərədə Azərbaycan bayrağı dalğalanır**

Qalib Azərbaycan 2023-cü il sentyabrın 19-da başladığı və cəmi 23 saat əzində uğurla tamamladığı lokal xarakterli antiterror tədbirləri nəticəsində torpaqlarımızda, o cümlədən də Ağdərədə  separatizmin kökünü kəsməyə nail oldu. Artıq ölkəmizin bütün əraziləri kimi  Ağdərə də azaddır.  Prezident İlham Əliyein 2023-cü il oktyabrın 15-də Ağdərə şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltması son dərəcə qürurvericidir.

5 dekabr 2023-cü il tarixində Milli Məclisdə “Azərbaycan Respublikasının Ağdərə rayonunun yenidən yaradılması haqqında” qanun qəbul olunub. Qanuna əsasən, inzibati ərazi vahidi kimi 1992-ci ildə ləğv olunan, ərazisi Kəlbəcər, Tərtər və Ağdam rayonları arasında bölüşdürülən Ağdərə rayonu əvvəlki qaydada təşkil edilib. Yeni rayonun mərkəzinin 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun keçirdiyi antiterror tədbirləri nəticəsində separatçılardan təmizlənən Ağdərə şəhərinin olması qərara alınıb.  27 dekabr 2023-cü il tarixində Prezident İlham Əliyev Azərbaycanın Ağdərə rayonunun yaradılması haqqında Qanunu imzalayıb.

**100-dən artıq yaşayış məntəqəsi, 12 şəhər üzrə quruculuq-bərpa işləri**

Bu gün həmçinin Azərbaycanın işğaldan azad olunmuş ərazilərdə reallaşdırdığı bərpa modelini fəxrlə təqdim etmək mümkündür. Bu model dayanıqlılıq, ərazi reinteqrasiyası və insanyönümlü inkişaf prinsiplərinə əsaslanır. Qarabağ və Şərqi Zəngəzurdakı şəhər və kənd icmaları üçün kompleks Baş planlar hazırlanıb və həyata keçirilir. Bu planlar sadəcə texniki sənədlər deyil - həyatların yenidən qurulması üçün yol xəritəsidir.

Artıq regionun ümumi planlaşdırılması başa çatıb. 13,6 min kvadratkilometr ərazini əhatə edən bu plan əsasında 1,1 milyon nəfərdən çox insanın doğma şəhər və kəndlərində məskunlaşması üçün yenidənqurma işləri icra olunur. Bütövlükdə, Ermənistanın işğal etdiyi və otuz il ərzində viran qoyduğu ərazilərimizdə 44 günlük Vətən müharibəsindəki Zəfərin ardınca innovativ yanaşmaların tətbiqi ilə həyatı yenidən canlandıran genişmiqyaslı quruculuq işləri, o cümlədən işğal illərində dağıdılmış şəhər və kəndlərin bərpası Azərbaycan dövlətinin memarlıq və şəhərsalmaya müfəssəl baxışını aydın nümayiş etdirir.

İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra  dünya memarlıq-inşaat təcrübəsində az rast gəlinən qısa bir müddətdə 100-dən artıq yaşayış məntəqəsi, o cümlədən 12 şəhər üzrə planlaşdırma sənədləri hazırlanıb və  quruculuq işlərinə start verilib. Bu fakt Azərbaycanın məsuliyyətini və gücünü bütün dünyaya nümayiş etdirir.

**Şəhərin məskunlaşma ərazisi 444 hektardan 522 hektara çatdırılacaq**

Ağdərə şəhərinin təqdim olunan Baş planına əsasən şəhərin məskunlaşma ərazisi 444 hektardan 522 hektara çatdırılacaq. 20 illik perspektiv dövr üçün şəhər əhalisinin sayının 14 min nəfər olması proqnozlaşdırılır. Baş planın konseptual sxeminə şəhər mərkəzi, fərdi və azsıxlıqlı yaşayış sahələri, çoxfunksiyalı və ictimai-işgüzar zonalar daxildir. Bundan başqa, şəhərdə terras parkı, çayətrafı bulvar, aqroturizm, sənaye və logistika zonalarının yaradılması planlaşdırılır.

Baş planla yanaşı, Ağdərə şəhərinin birinci mərhələdə yenidən qurulacaq ərazisi üzrə müfəssəl həllər də hazırlanıb. Şəhərin mənzil fondunun 420 min kvadratmetr olması, həmçinin 80 çarpayılıq xəstəxananın, 2520 şagird yerlik 5 məktəbin, 840 yerlik 5 uşaq bağçasının və peşə məktəbinin inşası planlaşdırılır. Birinci mərhələdə sahəsi 104 hektar olan şəhər mərkəzinin inkişaf etdirilməsi nəzərdə tutulur. 2030-cu ilədək şəhərdə 3590 nəfərin məskunlaşması mümkün olacaq. Burada yol və küçələrin uzunluğu 46,8 kilometr, velosiped zolaqlarının uzunluğu isə 10 kilometr təşkil edəcək. Layihə çərçivəsində ictimai və yaşayış binalarının memarlıq həlləri də işlənilib.

# Milli müdafiə sənayesi: 20 ildə keçilən uğurlu yol

Ölkəmizdə dövlət siyasətinin prioritetləri mövcud imkanlar və reallıqlar, eləcə də yaranan yeni çağırışlar nəzərə alınmaqla müəyyənləşir. Müstəqil Azərbaycanda qısa müddətdə müdafiə sənayesinin qurulması bunun əyani təsdiqidir. Bu istiqamətdə mövcud istehsal sahələrinin müasir standartlara uyğun təkmilləşdirilməsi, yenilərinin yaradılması üzrə işlər uğurla həyata keçirilir. Prezident İlham Əliyev bu günlərdə yerli televiziya kanallarına müsahibəsində respublikamızda müdafiə sənayesinin inkişafından, burada rəqabətqabiliyyətli məhsulların istehsalının mənimsənilməsindən məmnunluğunu bildirib və yeni hədəflərə diqqət çəkib.

## İnkişafı şərtləndirən əsas amillər

Müstəqil Azərbaycanda son dərəcə vacib sahə olan müdafiə sənayesinin yaradılmasını və inkişafını şərtləndirən iki mühüm amilə xüsusi diqqət çəkmək istərdik. Bunlardan ən mühümü, heç şübhəsiz ki, daxili tələbatın ödənilməsi zərurəti ilə bağlıdır. Müdafiə Sənayesi Nazirliyinin (MSN) fəaliyyət istiqamətlərinə əsas etibarı ilə Dövlət Müdafiə Sifarişi Proqramına uyğun olaraq müdafiə təyinatlı məhsulların yaradılmasını, istehsalını, təkmilləşdirilməsini, təmirini, utilizasiyasını, idxal-ixracını təmin etmək daxildir. Ötən il avqustun 8-də Vaşinqtonda Azərbaycanla Ermənistan arasında tənzimləmə prosesində əldə olunan razılaşmalarla regionda sülh dövrü başlasa da, Azərbaycan gözlənilən riskləri nəzərə almaqla özünün yeni təhlükəsizlik arxitekturasını formalaşdırır, ordusunun döyüş hazırlığının yüksəldilməsi siyasətini davam etdirir, Silahlı Qüvvələrin maddi-texniki təchizatının daha da möhkəmləndirilməsi qayğısına qalır. Əgər Azərbaycanın hərbi-müdafiə və təhlükəsizlik xərcləri 2003-cü ildə 150 milyon manat idisə, hazırda 8 milyard manatdan çoxdur. Yəni son 22 ildə hərbi xərclər təxminən 40 dəfə artırılıb. Ötən il Prezident İlham Əliyevin göstərişinə əsasən müdafiə və təhlükəsizlik xərcləri 1 milyard 738 milyon manat artırılaraq 8 milyard 396,3 milyon manata çatdırılıb. Cari ildə isə müdafiə sahəyə 8 milyard 714 milyon manat vəsait ayrılması nəzərdə tutulub ki, bu da ümumi büdcənin 21 faizi deməkdir.

O cümlədən Ordumuzun güclənməsində milli müdafiə sənayesinin rolu getdikcə artır. Prezident İlham Əliyevin müsahibəsində vurğu etdiyi kimi, yerli sənayedə buraxılan məhsulların bir qismi daxili tələbatın ödənilməsinə yönəldilir. Beləliklə, Azərbaycan Silahlı Qüvvələrinin hərbi-texniki təchizatına xidmət edən müdafiə sənayesinin kəmiyyət və keyfiyyət göstəricilərinin yüksəlməsi ölkənin müdafiə qabiliyyətini yüksəldir, ordumuzun təchizatının ixracdan asılılığını aradan qaldırır. Ötən il respublikamızın müdafiə sənayesi müəssisələrində 1,4 milyard manat dəyərində hərbi təyinatlı məhsul istehsal eddilib ki, onların da böyük hissəsi Azərbaycan Silahlı Qüvvələrinin təchizatına yönəldilib.

Ölkəmizdə müdafiə sənayesinin inkişafına həssas yanaşılması, həmçinin dünyadakı narahat vəziyyətdən qaynaqlanır. Təəssüf doğuran haldır ki, hazırda dünyanın mənzərəsi ayrı-ayrı regionlarda alovlanan müharibələrlə səciyyələnir. Buna uyğun olaraq da qlobal miqyasda hərbi təyinatlı məhsullara tələbat artır. Bu reallığı nəzərə aldıqda müdafiə sənayesinin inkişafı Prezident İlham Əliyevin də bildirdiyi kimi, ölkəmiz üçün alternativ valyuta mənbəyinə çevrilə bilər. Yəni müdafiə sənayesi milli iqtisadiyyatımızın qeyri-neft sektorunun mühüm bir istiqaməti kimi inkişaf edirlir, xarici bazarlara böyük tələbat duyulan məhsullar çıxarılır və beləliklə də ölkəmizin gəlir imkanları artırılır. Hazırda Azərbaycan 20-yə yaxın ölkəyə hərbi təyinatlı məhsullar ixrac edir ki, bu da böyük uğurdur. Hədəf isə ixrac coğrafiyasını və həcmlərini daha da artırmaqdır. Bununla bağlı fikirlərini bölüşən Prezident İlham Əliyev bildirib: “Yenə də deyirəm, ilkin mərhələdə məqsəd ancaq idxaldan asılılığı azaltmaq idi. Bu gün isə biz buna, o cümlədən biznes istiqaməti kimi baxırıq. Çünki dünyada, əfsuslar olsun ki, müharibələrin sayı artır, hərbi təyinatlı məhsullara tələbat artır. Onların qiyməti kəskin artıb. İlk növbədə, sursatların qiyməti kəskin artıb. Ona görə bu, bizim üçün alternativ valyuta mənbəyi ola bilər və qoyduğum qısamüddətli hədəf ixracı bir milyard dollara çatdırmaqdır. Hesab edirəm ki, biz bu rəqəmə üç-dörd ilə çata bilərik. Bu, tam realdır”.





## 1000-dən çox adda məhsul...

Ölkəmizdə müdafiə sənayesinin əsası Prezident İlham Əliyev 2005-ci il dekabrın 17-də imzaladığı müvafiq Sərəncamla qoyulub. Dövlət başçısının 2009-cu il 10 noyabr tarixli Sərəncamı ilə hər il dekabrın 17-si ölkəmizdə MSN işçilərinin peşə bayramı günü kimi qeyd edilir. 2019-cu il 14 yanvar tarixində isə Prezident İlham Əliyev “Azərsilah” Açıq Səhmdar Cəmiyyətinin yaradılması haqqında Fərman imzalayıb. Fərmanla Müdafiə Sənayesi Nazirliyinin əsasında formalaşan “Azərsilah” Açıq Səhmdar Cəmiyyəti ölkədə dövlət idarəetmə strukturunu optimallaşdırmaq, müdafiə sənayesinin inkişafının dayanıqlılığını təmin etmək, bu sahədə idarəetmə mexanizmlərini daha təkmilləşdirmək, habelə sənayeləşmənin yeni mərhələsində mövcud potensialdan səmərəli istifadə etməklə Azərbaycanın regionda silah istehsal edən əsas sənaye mərkəzlərindən birinə çevrilməsinə nail olmaq məqsədi ilə yaradılıb. Hazırda “Azərsilah” qabaqcıl texnologiyaları tətbiq etməklə respublikamızda silah istehsalını, ixracını, onların ölkə daxilində və xaricdə satışının təşkilini həyata keçirən, müasir menecment və korporativ idarəetmə standartları əsasında tabeliyində olan müəssisələrin fəaliyyətinin əlaqələndirilməsini və bu sahənin inkişafı ilə bağlı digər işləri yerinə yetirən kommersiya hüquqi şəxs kimi uğurla fəaliyyət göstərir.

Müsahibədə vurğulandığı kimi, müdafiə sənayesində struktur islahatları qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla həyata keçirilib. 20 il əvvəl müdafiə sənayesi dövlətin inhisarında olan bir sahə kimi nəzərdə tutulurdu. Silah istehsalı üzrə dünyada öncül mövqelərdə dayanan ölkələrdə özəl şirkətlər də bu sahənin inkişafına öz töhfələrini verirlər. Müasirləşməni strateji hədəf kimi müəyyənləşdirən Azərbaycan da bu təcrübədən yararlanmağa qərar verib. Nəzərə almaq lazımdır ki, özəl şirkətlərin müdafiə sənayesi sahəsində fəaliyyətə cəlb edilməsi həm də dövlətin maliyyə yükünün azaldılması anlamına gəlir. “Ona görə son iki il ərzində dövlət şirkəti ilə bərabər özəl şirkətlərə də imkanlar verildi. Bu günə qədər 15 şirkətə lisenziya verilib, təbii ki, bu sahə lisenziya tələb edən sahədir. Artıq 7 özəl şirkət hərbi təyinatlı məhsulun istehsalına başlayıb. Əgər biz qoyulan sərmayənin həcminə baxsaq görərik ki, yeni istehsal sahələri yaratmaq və mövcud olanları genişləndirmək üçün 2024-2025-ci illərdə bir milyard manat dəyərində sərmayə qoyulub. Bunun da yarısı özəl sektor tərəfindən qoyulubdur”, - deyə Prezident İham Əliyev vurğulayıb.

Davamlı dövlət qayğısının, aparılan islahatların nəticəsi olaraq ötən 20 ildə milli müdafiə sənayemizdə həm buraxılan hərbi təyinatlı məhsulların həcmi və qoqabətqabiliyyətliliyi, həm də çeşidləri əhəmiyyətli dərəcədə artıb. Qeyd edək ki, artıq yerli sənaye müəssisələrində 1000-dən çox adda hərbi təyinatlı məhsul istehsalı mənimsənilib və yeni məhsulların kütləvi istehsalına başlanılması istiqamətində işlər intensiv şəkildə davam etdirilir. Vurğulamaq yerinə düşər ki, milli müdafiə sənayemizin bir sıra yeni məhsulları ötən il noyabrın 8-də Vətən müharibəsində Qələbənin beşinci ildönümü münasibətilə Bakının Azadlıq meydanında keçirilən hərbi paradda nümayiş etdirildi. Bu sırada silahlanmaya yeni qəbul edilmiş “VAŞAQ” xüsusi əməliyyat nəqliyyat vasitələrini, “VİKİNQ” hava hədəflərinə qarşı çoxfunksiyalı mobil döyüş kompleksini, pilotsuz uçuş aparatlarını və digərlərini sadalaya bilərik.

## Beynəlxalq sərgilərdə yüksək fəallıq

Artıq Azərbaycanın müdafiə sənayesi müəssisələrində buraxılan yüksək texniki göstəricilərə malik silahların ixtisaslaşmış beynəlxalq sərgilərdə nümayiş etdirilməsi də ənənə halını alıb. Belə sərgilərdə bir tərəfdən dünyada silah istehsalında müasir trendlərin öyrənilməsi üçün fürsətlər yaranır, digər tərəfdən isə məhsullarımızın beynəlxalq səviyyədə təqdimatı həyata keçirilir, yeni satış müqavilələri imzalanır. Ötən il Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində keçirilən “IDEX-2025” Beynəlxalq Müdafiə Sərgisində Azərbaycanın müdaafiə sənayesi müəssisələrinin məhsulları uğurla nümayiş etdirilib. Sərgidə Müdafiə Sənayesi Nazirliyinin tabeliyində olan “Azərsilah” Müdafiə Sənayesi Holdinqi” Qapalı Səhmdar Cəmiyyətinin stendində Azərbaycanın istehsal etdiyi atıcı silahlar, minaatanlar, müxtəlif çaplı döyüş sursatları, yaxın məsafəli döyüş vasitələri, artilleriya silahları, optik nişangah və cihazlar, pilotsuz uçuş aparatları və s. daxil olmaqla 100-ə yaxın müdafiə təyinatlı məmulat nümayiş etdirilib. Bütövlükdə, beynəlxalq sərgiyə 132 mindən çox ziyarətçi qatılıb.

Eyni zamanda, Azərbaycanın özü də dünyanın bir sıra qabaqcıl şirkətlərinin məhsullarının nümayiş etdirildiyi sərgilər keçirir. Məsələn, ölkəmizdə baş tutan “ADEX-2024”də - 5-ci yubiley sərgisində dünyanın 40-a yaxın ölkəsindən 218-dən artıq şirkət iştirak edib. “ADEX”-in qısa müddətdə keçdiyi yol kifayət qədər uğurlu olub. Tam əminliklə deyə bilərik ki, paytaxtımızda keçirilən bu tədbir artıq beynəlxalq əməkdaşlıq platformasına çevrilib. Sərgi dünyanın tanınmış hərbi sənaye müəssisələri və aparıcı xarici şirkətlər arasında işgüzar əlaqələrin qurulmasında mühüm rol oynayır. Yubiley sərgisinin iştirakçıları arasında Amerika Birləşmiş Ştatları, Türkiyə, Rusiya, İran, Bolqarıstan, Çin, Fransa, İtaliya, Niderland və digər ölkələrin müdafiə sektorlarının aparıcı şirkətləri yer alıb. Macarıstan, Rumıniya və Sinqapurdan olan şirkətlər sərgiyə ilk dəfə qatılıb. 12 ölkə sərgidə milli stendləri ilə iştirak edib. İtaliya, Macarıstan, Qətər Dövləti və Slovakiya sərgiyə ilk dəfə milli stendlərlə gəliblər. Bir çox ölkələr isə öz milli ekspozisiyalarının sahələrini böyüdüblər. Bu sərgi dünya silah bazarında ixraca təklif olunan hərbi sənaye kompleksinin müxtəlif sahələri üzrə müasir müdafiə texnologiyaları, hərbi texnikanın ən son nümunələri ilə tanış olmaq, beynəlxalq hərbi-texniki əməkdaşlıq sahəsində yeni müqavilələr imzalamaq üçün geniş imkanlar yaradır.

*Mübariz ABDULLAYEV*

# BMT Azərbaycanla bağlı gözləntilərini açıqlayıb

## Birrəqəmli inflyasiya 2026-cı ildə davam edəcək

Birləşmiş Millətlər Təşkilatı (BMT) 2026-cı ildə inflyasiya ilə bağlı yeni gözləntilərini açıqlayıb. Təşkilatın yenilənmiş hesabatında Azərbaycanda cari il üzrə istehlak qiymətləri indeksi 4 faiz, 2027-ci il üçün isə 3,5 faiz səviyyəsində proqnozlaşdırır. Qiymətləndirmələrinə görə, 2025-ci ilin yekununda ölkəmizdə inflyasiya gözlənilən hədəf diapozununda bir neçə bənd yüksək olub və 5,6 faiz təşkil edib. Cari ildə isə ehtimal edilən qiymət indeksi bir qədər azalmaqla ümumdünya göstəricisinə uyğun olacaq. Ehtimallara görə, inflyasiyanın artmasında əsas rol oynayan amillərdən biri kimi mal və əmtəələrin, xüsusilə də qlobal ərzaq mallarının bahalaşması gözlənilmir. Bu da idxal inflyasiyasını neytrallaşdırır.




Yeri gəlmişkən, Dövlət Statistika Komitəsinin məlumatına görə, 2025-ci ildə ölkəmizdə illik inflyasiya göstəricisi 5,6 faiz təşkil edib. İnflyasiyanın strukturunda qida məhsulları, içkilər və tütün məmulatları üzrə artım 6,8 faiz, qeyri-qida məhsulları üzrə 2,5 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə 6,5 faiz təşkil edib.

**Valyuta Fondu və Dünya Bankının nikbin proqnozları**

Dünyanın digər nüfuzlu institutlarının da hesabatlarında Azərbaycanla bağlı inflyasiya ehtimalı BMT-nin göstəricilərinə yaxındır. Beynəlxalq Valyuta Fondunun (BVF) qlobal iqtisadiyyata dair proqnoz baxışlarına əsasən, Azərbaycan üzrə inflyasiya 4,5 faiz nisbətində müşayiət olunacaq. BVF-nin cari və ortamüddətli dövr üzrə ssenarilərinə əsasən, 2025-ci ildə inflyasiya bütün region dövlətlərində, qlobal miqyasda sabit qalıb və ya cüzi artım nümayiş etdirib. Hətta enerji və kənd təsərrüfatı məhsullarının qiymətlərinin bir il əvvəlki səviyyəsindən aşağı düşməsi bəzi regionlarda istehlak indeksini zəiflədib. Fondun qlobal əmtəə bazarları haqqında son hesabatına əsasən 2026-cı ilin birinci yarısı ərzində enerji məhsullarının ucuzlaşması qiymət indeksini azalda bilər. Bu, Azərbaycanda qiymət indeksi ilə bağlı gözləntilərin də qənaətbəxş hesab edilməsini əsaslandır. Mövcud bazar göstəriciləri cari ildə qiymət indeksinin sabit çərçivədə qorunub saxlanılacağından xəbər verir.

Niderlandın ən böyük bank qrupu olan “ING Group” Azərbaycanda orta illik inflyasiyanı 2026-cı ildə 5,3 faiz, 2027-ci ildə isə 5,8, faiz səviyyəsində proqnozlaşdırır. Dünya Bankının ötən ilin oktyabrında açıqlanmış nəşrində isə ölkəmizdə istehlak qiyməti inkdeksi üzrə proqnoz 2025-2026-cı illərdə 3-4 faiz səviyyəsində götürülüb. Asiya İnkişaf Bankı Azərbaycanda 2026-cı ildə orta illik inflyasiyanı 3,5 faiz səviyyəsində proqnozlaşdırır.

“Moody’s” beynəlxalq reytinq agentliyi Azərbaycanda cari ildə orta illik inflyasiyanın 3 faiz, “Fitch Ratings” 4,6 faiz, “Fitch Solutions” 5,5 faiz səviyyəsində olacağını gözləyir.

**ING Group”: Qeyri-neft mənbələri iqtisadi artımı təmin edir**

Yeri gəlmişkən, “ING Group” vurğulayıb ki, Azərbaycan iqtisadiyyatı ötən ildə mülayim artım templəri nümayiş etdirib və fiskal dayanıqlılığını saxlayıb. Ötən il əsas dəyər yaradan sahə - qeyri-neft mənbələrini üzərində inkişaf templəri ümumi iqtisadi artımın təmin edib . Hökumətin stimullaşdırıcı büdcə və kredit siyasətləri çərçivəsində qeyri-neft dinamikası əlavə dəyərin formalaşmasında üstünlük təşkil etməkdədir. Xarici ticarət və tədiyyə balansında müsbət saldonun qeydə alınması makrosabitliyin möhkəm sütunlarda dayandığını göstərir. Büdcə ÜDM-in 2,6 faiz səviyyəsində qeydə alınan profisiti maliyyə-fiskal yığımların əvvəlki fiskal hərarətinin davam etməsini təsdiqləyir.

Azərbaycanda monetar amil də ümidvericidir, yürüdülən uçot siyasəti faiz dərəcələrinin yumşalmasından xəbər verir. Belə ki, Mərkəzi Bank uçot dərəcəsini 7 faizə endirib, sentyabrda da enmə dərəcədə saxlaması sərt pul siyasətindən daha konservativ olduğunu şərtləndirmklə bank sektoru üçün əlverişli faiz tətbiq etməsinə imkan yaradır. Bu tendensiya ölkənin maliyyə dayanıqlığına da işarə edir, Azərbaycan manatının sabitliyinin bir göstəricisi olaraq çıxış edir. Manat ABŞ dollarına nisbətdə 1,7 səviyyəsində sabit olaraq qalır və bu sabitliyin 2026-2027-ci illərdə qüvvədə qalacağı gözlənilir.

**Sülh sazişi regional əhval-ruhiyyəni dəyişəcək**

“ING” analitiklərinin fikrincə, Azərbaycan və Ermənistan arasında sülh sazişinin imzalanması yönündə ardıcıl və iradəli addımlar regional əhval-ruhiyyəni xeyli müsbət yöndə dəyişdirməklə mühüm siyasi amil kimi həm də iqtisadi situasiyalara pozitiv təsir edə bilər. Regionda sülh və sabitliyin dayanıqlı bərqərar olması böyük bir coğrafiyada rifah və inkişaf arxitekturasını möhkəmləndirmiş olacaq. Regionda investisiya, müştərək biznes proqramları, nəqliyyat, logistika, tranzit həmrəyliyinin formalaşması çoxtərəfli iqtisadi platformalar yaratmaqla bütün tərəflərin faydalanmasına səbəb ola bilər.




BMT-nin proqnozları Azərbaycan hökumətinin inflyasiya ilə bağlı ehtimalları ilə demək olar ki, eynidir. İqtisadiyyat Nazirliyinin proqnozlarına əsasən, ölkəmizdə orta illik inflyasiya 2026-cı ildə 4,8 faiz, 2027-ci ildə isə 4,5 faiz təşkil edəcək. Mərkəzi Bankının sonuncu yenilənmiş proqnozunda da bu rəqəm oxşardır: baza ssenarisinə əsasən, illik inflyasiyanın hədəf daxilində olacağı, 2026-cı ilin yekununda 4,6-5 faiz olacağı gözlənilir.

**Anti-inflyasiya tədbirləri diqqətdə saxlanılacaq**

Mərkəzi Bank hesab edir ki, inflyasiya tədbirləri üçün əsaslı fundamental rıçaqların ortaya çıxacağı nəzərə çarpmır. Ötən ilin dekabr ayı üzrə inflyasiya riskləri balansında baş verən dəyişikliklərin təhlili artırıcı risklərin nisbətən səngidiyini göstərir. Bununla belə, geosiyasi gərginliklər və qlobal ticarət mühitindəki qeyri-sabitlik əmtəə və maliyyə bazarları ilə bağlı qeyri-müəyyənlikləri hələ də yüksək səviyyədə saxlayır. Əsas xarici risk idxal qiymətlərinin daxili inflyasiyaya ötürülməsi ilə bağlıdır. Bu risk ticarət tərəfdaşlarında inflyasiya prosesləri və nominal effektiv məzənnənin dinamikasından asılı olacaqdır. Daxili risk faktorları isə əsasən təklif - xərc amilləri hesabına formalaşmaqdadır.

2026-cı ilə dövlət büdcəsinin ilkin parametrləri və kredit qoyuluşlarının illik artım tempinin səngiməsi məcmu tələbin izafi artımı riskini azaldır. Baza ssenariyə əsasən, 2026-cı ildə illik inflyasiyanın hədəf daxilində olacağı proqnozu dəyişməz qalır. Son meyillərin təhlili növbəti ildə inflyasiya proqnozunun azalma istiqamətində dəyişdirilməsi ehtimalının olduğunu göstərir.

Bütün bunlara rəğmən, Mərkəzi Bank qiymət sabitliyini təmin etmək üçün sərəncamındakı bütün vasitələrdən istifadə edəcəyini bəyan edir. Bütün bu sabit gözləntilərə baxmayaraq, inflyasiya ilə mübarizə tədbirləri prioritet faktor kimi diqqətdə saxlanılacaq və iqtisadi siyasətin əsas çərçivə hədəflərinə uyğun olaraq bütün iqtisadi qurumlar bu prosesə cəlb ediləcək. 2026-cı ildə inflyasiya ilə mübarizə strategiyası çərçivəsində əvvəlki kursa uyğun addımlar atılacaq, inflyasiyanın əhalinin alıcılıq qabiliyyətinə və real gəlirlərinə mənfi təsirlərinin azaldılması əsas vəzifələrdən biri kimi xüsusi diqqət mərkəzində saxlanılacaq.

*E. CƏFƏRLİ*

# Azərbaycan-Türkiyə qardaşlığı...

## İki ölkə regional proseslərlə bağlı koordinasiyalı şəkildə əməkdaşlıq edir

Hazırda dünyada, o cümlədən regionumuzda mürəkkəb proseslər davam edir. Yeni dünya nizamının formalaşdığı bir zamanda Azərbaycan xarici siyasət kursunda dost və müttəfiq ölkələrlə əlaqələri daha da gücləndirməkdədir. Təbii ki, bu sırada qardaş və strateji müttəfiq olan Türkiyə ilə münasibətlər xüsusi yer tutur.



### XİN başçıları nələri müzakirə ediblər?

Regionun güclü və nüfuzlu dövlətləri olan Azərbaycanla Türkiyə daim müxtəlif səviyyələrdə təmasdadır və ikitərəfli, o cümlədən regional proseslərlə bağlı koordinasiyalı şəkildə əməkdaşlıq edirlər. Bu baxımdan, yanvarın 13-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla Türkiyənin xarici işlər naziri Hakan Fidan arasında telefon danışığı diqqəti cəlb edir. Xarici İşlər Nazirliyindən verilən məlumata görə, telefon danışığı zamanı, Azərbaycan-Türkiyə müttəfiqlik münasibətlərindən irəli gələn məsələlər, regional və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, eləcə də regionda təhlükəsizlik vəziyyəti müzakirə olunub, iki qardaş ölkə arasında birgə əlaqələndirilmiş fəaliyyətdən məmnunluq ifadə olunub.

Ümumiyyətlə, Azərbaycan və Türkiyə "Bir millət, iki dövlət" prinsipi ilə dünyaya örnək olan, qardaşlıq və birlikdəlik ruhunu əks etdirən, qədim tarixə, dərin köklərə malik ölkələrdir. Bu qardaşlıq münasibətləri iki ölkənin mədəni, tarixi və dil əlaqələrinə əsaslanır. Həmçinin Azərbaycan və Türkiyə geosiyasi baxımdan strateji tərəfdaşlar olaraq, regional və qlobal səviyyədə mühüm əhəmiyyət kəsb edirlər. Bu əlaqələr, həmçinin Türk dünyası çərçivəsində birliyin və əməkdaşlığın təmin edilməsi istiqamətində bir model kimi çıxış edir.

### İki qardaş ölkə hər zaman bir-birinin yanındadır

1990-cı illərin sonlarından başlayaraq, xüsusən də müstəqilliyin ilk illərində Türkiyə Azərbaycana siyasi və diplomatik dəstək göstərib, həmçinin iqtisadi inkişaf sahəsində bir çox layihələrdə iştirak edib. Türkiyə ölkəmizin suverenliyinə və ərazi bütövlüyünə olan dəstəyini, xüsusilə keçmiş Qarabağ münaqişəsi zamanı açıq şəkildə nümayiş etdirib.

İki ölkə arasında ticarət əlaqələri, enerji və nəqliyyat sahələrində əməkdaşlıq da kifayət qədər genişdir. 2000-ci illərdə xüsusilə enerji və infrastruktur layihələri ölkəmizin iqtisadi inkişafını dəstəkləmək və Türkiyə ilə əlaqələri daha da möhkəmləndirmək baxımından mühüm əhəmiyyət kəsb edib. Azərbaycan enerji ixracatı sahəsində Türkiyə vasitəsilə Avropaya açılan yeni yollar əldə edib, bu da hər iki ölkə üçün strateji baxımdan əhəmiyyətli olub.

2020-ci ildə İkinci Qarabağ müharibəsi zamanı Türkiyənin Azərbaycanı siyasi və diplomatik baxımdan dəstəkləməsi, bu əlaqələrin daha da möhkəmlənməsinə gətirib çıxarıb. Bu əməkdaşlıq yalnız iqtisadi və hərbi sahələrdə deyil, mədəniyyət və təhsil sahələrində də inkişaf etməkdədir. Türkiyənin Azərbaycanda həyata keçirdiyi bir çox təhsil və mədəniyyət proqramları, iki xalq arasında daha da yaxınlaşmağa səbəb olub. Bu sahələrdəki fəaliyyətlər həm də gələcək nəsillər üçün təməl yaradaraq iki ölkə arasında mədəni inteqrasiyanı artırıb.

Azərbaycan da hər zaman Türkiyənin çətin günlərində onun yanında olub. Güclü zəlzələdən sonra dövlətimiz tərəfindən Kahramanmaraşda şəhərciyin inşa edilməsi bunun göstəricisidir.

### İqtisadiyyat və enerji sektorunda birgə layihələr

Ölkələrimiz arasındakı iqtisadi əlaqələr, xüsusilə enerji sahəsindəki əməkdaşlıqla daha da güclənib. 2023-cü ildə Azərbaycan və Türkiyə arasında qarşılıqlı ticarət dövriyyəsinin artan dinamikası davam edir, Azərbaycanın Türkiyə iqtisadiyyatına etdiyi yatırımların həcmi isə 20 milyard dolları ötüb. Bu rəqəmin gələcəkdə daha da artacağı gözlənilir.

Azərbaycan Cənubi Qafqazın ən böyük enerji təchizatçısı olaraq Türkiyə vasitəsilə Avropaya enerji tədarükü edir. Bu sahədəki əməkdaşlıq xüsusilə 2006-cı ildə istifadəyə verilən Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəməri və Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihələri ilə dərinləşib. Bu layihələr yalnız iqtisadi deyil, həm də siyasi və strateji əhəmiyyətə malikdir, çünki Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır.

Həmçinin 2020-ci ildən tam fəaliyyətə başlayan TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) layihəsi də Azərbaycan qazını Türkiyə vasitəsilə Avropaya ixrac etmək üçün mühüm bir imkan yaradıb. TANAP Cənubi Qafqazı Avropa bazarına bağlayan əsas enerji layihələrindən biridir və bu, yalnız iki ölkə arasındakı iqtisadi əlaqələri möhkəmləndirmir, həm də Azərbaycanın enerji ehtiyatlarını Avropaya çıxarmaq üçün geniş imkanlar təqdim edir. Bu layihələr, həm də Azərbaycanın və Türkiyənin regional enerji təhlükəsizliyini təmin etməsinə və Avropa bazarları ilə daha sıx əlaqə qurmasına şərait yaradır.

Davamlı şəkildə güclənən qardaşlıq bağları və strateji müttəfiqlik əlaqələrinin inkişafı ölkələrimiz qarşısında duran çoxsaylı problemlərin uğurla həllinə imkan yaradır. Bu işbirliyinin mühüm nəticələrindən biri də illərdir Ermənistanın yaratdığı blokada şəraitində yaşamağa məcbur olan Naxçıvan Muxtar Respublikasının enerji təminatının daha etibarlı səviyyəyə çatdırılmasıdır. Azərbaycan və Türkiyə liderlərinin uzaqgörən siyasətinin nəticəsi kimi ərsəyə gələn İğdır-Naxçıvan qaz kəməri məhz bu məqsədə xidmət edir. Türk coğrafiyası üçün mühüm əhəmiyyət daşıyan Naxçıvanın enerji təhlükəsizliyinin təmin edilməsi baxımından bu kəmər xüsusi önəm kəsb edir.



### Hərbi və təhlükəsizlik sahələrində əlaqələr genişlənir

Ölkələrimizin hərbi sahədəki əməkdaşlığı da hər zaman böyük önəm daşıyıb. Türkiyə ilə Azərbaycanın hərbi və təhlükəsizlik sahəsindəki əməkdaşlığı bölgənin sabitliyi, təhlükəsizliyi baxımından olduqca əhəmiyyətlidir. Hər iki ölkə müxtəlif beynəlxalq təşkilatlarda birgə fəaliyyət göstərir və bu əməkdaşlıq da həm regional, həm də qlobal səviyyədə birgə təhlükəsizlik təşəbbüslərinə rəhbərlik edir. Azərbaycanın öz ərazilərini 30 illik işğaldan azad etməsi prosesində Türkiyənin siyasi dəstəyi də ölkələrimiz arasındakı münasibətlərin möhkəmlənməsinə səbəb olub. Həmçinin bu baxımdan ölkələrimiz arasında birgə hərbi təlimlərin keçirilməsi, silah tədarükü və müdafiə sənayesi sahəsindəki layihələr mühüm əhəmiyyət kəsb edir.

Azərbaycanın müdafiə qabiliyyətinin artırılması istiqamətində Türkiyənin verdiyi dəstək, xüsusilə hərbi təlimlərlə davam edir. Azərbaycanın müxtəlif bölgələrində keçirilən hərbi təlimlərdə Türkiyə Silahlı Qüvvələri və Azərbaycan Silahlı Qüvvələri birgə iştirak edərək hərbi hazırlıq səviyyələrini artırıb, regional təhlükəsizliyi təmin etmək üçün güclü təməl yaradıb. Bu təlimlər, həmçinin NATO ilə əməkdaşlıq çərçivəsindəki əlaqələri gücləndirir və qardaş ölkələrimizin beynəlxalq təhlükəsizlik məsələlərindəki həmrəyliklərini daha da möhkəmləndirir.

Bütövlükdə, Azərbaycan və Türkiyə arasındakı münasibətlər iki ölkənin ortaq tarixindən, mədəniyyətindən və dilindən qaynaqlanaraq beynəlxalq səviyyədə güclü strateji əməkdaşlığa çevrilib. Türk dünyası daxilində ölkələrimiz arasında artan əməkdaşlıq yalnız iki dövlətin deyil, bütün Türk dünyasının birliyini və inkişafını dəstəkləyir.

Hər iki ölkə regional təhlükəsizlik məsələlərində də ortaq maraqlara malikdir. Yəni, Cənubi Qafqazda yaranmış yeni reallıqlar, o cümlədən Yaxın Şərqdə artan gərginlik, xüsusilə Suriyadakı vəziyyət iki qardaş ölkənin diqqət mərkəzindədir. Dövlətlərimiz regionumuzda sülhün və sabitliyin təmin olunması üçün birgə diplomatik fəaliyyət həyata keçirir. Bu baxımdan, iki ölkənin XİN başçılarının telefon danışığı zamanı aparılan müzakirələr böyük əhəmiyyət kəsb edir.

*Nardar BAYRAMLI*

# "Startap" şəhadətnaməsi alan biznes subyektlərinin sayı artır

## Daha 9 mikro və kiçik sahibkar şəhadətnamə ilə təmin edilib

Azərbaycanda rəqəmsal iqtisadiyyatın müasir atributlarından biri olan startap ekosistemi biznes ideyalarının mükəmməl aləti kimi öz imkanlarını artırmaqdadır. Uğurlu biznes layihəsi kimi startaplar kiçik və orta biznesin (KOB) marağında ön plana çıxır və sahibkar tərəfindən əldə edilən "Startap" şəhadətnamələrinin sayı artır. Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) Ekspertlər Şurası tərəfindən 2026-cı ilin ilk günlərində daha 9 KOB subyektinə "Startap" şəhadətnaməsi verilib. "Startap" şəhadətnamələri "Mountai Group" MMC-nin neft və qaz sənayesində süni intellekt əsaslı analitika və rəqəmsal həll, "JFB Tech" MMC-nin humanoid robotlar üçün proqram təminatının hazırlanması və istehsalı, "Castingaz" MMC-nin onlayn kastinq, "Smile Tour" MMC-nin səyahət və turizm xidmətləri üçün marketpleys, "Markpro Group" MMC-nin Aİ dəstəkli rəqəmsal marketinq, "Buta Xidmət" MMC-nin onlayn sosial sahibkarlıq, "Agile" modelinə əsaslanan onlayn idarəetmə və süni intellekt, rəqəmsal loyallıq platformalarına verilib.

Beləliklə, ölkəmizdə "Startap" şəhadətnaməsi alan biznes subyektlərinin sayı 250-yə çatıb. Həmin sahibkarların əhəmiyyətli bir qismi regionlarda fəaliyyət göstərən KOB təmsilçiləridir. "Startap" şəhadətnaməsi almış layihələr fintek, təhsil, ictimai iaşə, İKT, sənaye, turizm, biznesin rəqəmsallaşması, elektron ticarət sahələri üzrə innovativ həlləri özündə ehtiva edən mobil tətbiq və onlayn xidmətlərdir. Ümumilikdə isə indiyədək 215 mikro və kiçik sahibkarlıq subyektinə "Startap" şəhadətnaməsi verilib.

**Güzəşt və motivasiyalar yerli və xarici investorların marağını artırır**

Biznes nümayəndələrinə "Startap" şəhadətnaməsinin verilməsinə 2021-ci ildən başlanılıb. "Startap" şəhadətnaməsi KOB subyektlərini şəhadətnaməni aldıqları tarixdən etibarən innovasiya fəaliyyətindən əldə etdikləri gəlirlər üzrə mənfəət və ya gəlir vergisindən 3 il müddətinə azad edilib. Vergi Məcəlləsinin 102.1.31.-ci maddəsinə əsasən, "Startap" şəhadətnaməsi olan fiziki şəxs şəhadətnaməni aldığı tarixdən 3 il müddətinə və həmin startap şəhadətnaməsi üzrə innovasiya fəaliyyətindən əldə etdikləri gəlirləri vergidən azaddır. Həmçinin startaplar üzrə texnoloji avadanlıqlar və maddi-texniki güzəştlər və təşviqlər də bu sahədə motivasiyaedici mühit yaradıb.




Startapların nüfuz etdiyi yüksək texnologiyalar parklarında da xüsusi aktivlik nəzərə çarpmaqdadır. Texnopark rezidentlərinin sayının 96-ya yüksəlməsinə səbəb olub. Qeyd edək ki, Vergi Məcəlləsində edilmiş dəyişikliklərə və 2023-cü il yanvarın 1-dən qüvvəyə minən yeni qaydalara əsasən, texnologiyalar parkının rezidenti kimi texnologiyalar parkından kənar sistem inteqrasiyası, proqram təminatının hazırlanması və inkişaf etdirilməsi fəaliyyətini həyata keçirən şəxslər qeydiyyata alındıqları hesabat ilindən başlayaraq 10 il müddətinə mənfəət, gəlir əmlak vergiləri, dividendlər, texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalına münasibətdə ƏDV-dən azad edilib. Vergi güzəştləri onların həm texnopark, həm də texnoparkdan kənar fəaliyyətinə şamil edilir.

Nəticədə bu güzəşt və motivasiyalar yüksək texnologiyalar və innovasiyalar sektorunda çalışan gənc biznes icmasının sistem inteqrasiyası, proqram təminatı, süni intelket məhsulları üzrə inkişafında əlverişli münbit mühit yaradır. Eyni zamanda, "Startap" şəhadətnaməsi layihəyə yerli və xarici investorların marağını artırır, xarici bazarlara çıxışını asanlaşdırır.

**Yeni startap nəsli formalaşır**

Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin yeni rəqəmsal texnologiyaların tətbiqində verdiyi dəstək, o cümlədən startap platformasına motivasiyaları da yeni biznes nəslinin formalaşmasında mühüm rol oynayır. Startap ailəsi yaxın xarici tərəfdaşları ilə süni intellekt və maşınların öyrənilməsi, əşyaların interneti və şəhər transformasiyası, rəqəmsal ticarət və iqtisadiyyat platformaları ilə sıx əməkdaşlıq edərək iqtisadiyyatın rəqəmsallaşmasına da töhfə verirlər.

Azərbaycanlı startapçılar biznes ideyaları, kəşf və bacarıqları ilə artıq qlobal bazarlarda uğurlu investorlar kimi qəbul edilir. Bu motivasiyalar sayəsində son illərdə Azərbaycanın İT və rəqəmsal sektorlarında stratap, süni intellekt və biznes ideyları dünya ölkələrinin stratapları ilə rəqabət aparmağa çalışır. Onların KOBİA, Xəzər-Vençur, Elmin İnkişafı Fondu, Prezident yanında Gənclər Fondu, Sahibkarlar Təşkilatları Milli Konfederasiyasında təmsil olunan bacarıqlı gənc ideya müəllifləri kifayət qədər uğur qazanmağa nail olub. Ölkəmizi təmsil edən "SkyBee" komandası Ümumdünya Startap Yarışmasının (World Startup Competition) Asiya və Afrika üzrə Regional Final Müsabiqəsində 30-dan artıq texnologiya şirkəti arasında "Aqrar sektorda ən yaxşı startap" nominasiyasının qalibi olub. Azərbaycanlı stratapçılar artıq okenaın o tayında da rəqabət üçün imaknlarını sınamağa çalışır. Yaxın vaxtlarda ABŞ-da keçiriləcək Ümumdünya Startap Yarışmasına iştirak hüququ qazanmaq bu imkanları nümayiş etdirmək baxımından yaxşı fürsət hesab edilə bilər.

**"StartupGenome" və "StartupBlink" reytinqlərində əlverişli mövqe**

Dünya ölkələrinin innovasiya ekosisteminin təhlilini aparan "StartupGenome" şirkətinin bir müddət əvvəl açıqladığı 2025-ci il üzrə hesabatda Azərbaycan "Asiya ekosistemində istedadların əlçatanlığı" reytinqində ilk iyirmi beş ölkə arasında yer alır. "Startup Genome" hesabatında göstərilir ki, Azərbaycandakı ekosistem dövlətin rəqəmsal transformasiya yanaşması, kibertəhlükəsizlik və insan kapitalının inkişaf təşəbbüsləri ilə hərtərəfli dəstəklənir.




Eləcə də ölkəmiz ötən il "StartupBlink" reytinqində Mərkəz Asiya regionunda ən yüksək göstəriciyə nail olub. "StartupBlinkStartup Ecosystem Awards" reytinqinin nəticələrinə əsasən, Azərbaycanın innovasiya ekosistemi Mərkəzi Asiya üzrə "Ən Böyük Qlobal İrəliləyiş" mükafatına layiq görülüb. Respublikamız reytinqdə 6 pillə irəliləyərək bu kateqoriyada Mərkəzi Asiya ölkələri arasında ən yüksək göstəriciyə nail olub. "Ən Böyük Qlobal İrəliləyiş" mükafatı Azərbaycanın innovasiya siyasəti operatoru İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinə (İRİA) təqdim edilib. "StartupBlink"in hesabatında qeyd edilir ki, İRİA-nın fəaliyyəti nəticəsində ölkədə innovasiya infrastrukturu and startap siyasəti əhəmiyyətli dərəcədə inkişaf edib.

Bütün bu uğurlu layihə və əməkdaşlıq proqramları startapların müasir biznnes modeli kimi ön plana çıxması ölkəmizdə yüksək rəqabətli insan kapitalının formalaşmasında da mühüm rol oynayacaq.

*E.CƏFƏRLİ*

# Dünya Bankının yeni proqnozu

## Azərbaycanda 2026-2027-ci illərdə iqtisadi artım davam edəcək

Nüfuzlu qlobal iqtisadi institutlardan olan Dünya Bankı (DB) Azərbaycanda iqtisadi artım ilə bağlı yeni proqnozlarını açıqlayıb. Bankın ekspert icmasının beynəlxalq ictimaiyyətə təqdim etdiyi “Qlobal İqtisadi Perspektivlə” hesabatına əsasən, 2026-cı ildə ölkəmizdə ümumi daxili məhsul (ÜDM) 1,8 faiz, 2027-ci ildə isə 1,7 faiz artacaq. Ehtimallara görə, Cənubi Qafqaz ölkələrinin ümumi ÜDM artımı 2026-cı ildə 3,3 faiz, 2027-ci ildə isə 3,1 faiz səviyyəsində olacaq.



Hesabatda qeyd olunur ki, Azərbaycanda iqtisadi fəallıq karbohidrogen hasilatının azalması, dünya neft qiymətlərinin düşməsi və büdcə siyasətinin sərtləşməsi ilə məhdudlaşacaq. Ermənistan və Gürcüstanda yüksək baza səviyyəsindən sonra iqtisadi fəallığın normallaşması ilə özəl istehlakın yavaşlaması gözlənilir, pul köçürmələrinin zəifləməsi və ixrac gəlirlərinin azalması isə cari hesablara təzyiq göstərəcək.

DB-nin şərhinə əsasən, Azərbaycan iqtisadiyyatı üçün neft-qaz gəlirləri əhəmiyyətli mənbə olsa da, son illərdə xüsusi artım nümayiş etdirən qeyri-neft sektorundakı mənbələr iqtisadi artımın neftə deyil, qeyri-neft sahələrinə əsaslandığını göstərir. 2025-ci ildə ÜDM istehsalında qeyri- neft-qaz sektorunun payının artaraq 4 faiz təşkil etməsi əlavə dəyərin baza sütununun enerji sektoruna deyil, iqtisadi inkişafın əsas ağırlıq yükü və dayanıqlı sütunları olan qeyri-neft sektoruna söykəndiyini təsdiqləyir.

Qeyri-neft sektorunun artmasında əsas amillər kimi biznes sektorunun fəallığının yüksəlməsi, tikinti-inşaat, xidmət, turizm sahələrində yeni əlavə dəyərin formalaşması, neftdən kənar sahələrdə yığım mənbələrinin genişlənməsi, şəffaflaşma ilə bağlı görülən tədbirlər, bölgələrdə yeni müəssisələrin yaradılması müsbət dəyərləndirilir.

### “Business Ready” hesabatında yüksək nəticələr

Yeri gəlmişkən, Dünya Bankı tərəfindən 2025-ci il üzrə “Business Ready” (B-READY) hesabatı açıqlanıb. Azərbaycan ilk dəfə qiymətləndirildiyi bu hesabatda ölkənin maliyyə xidmətləri sahəsində əldə etdiyi yüksək nəticələr qeyd olunub. Belə ki, Azərbaycan “maliyyə xidmətləri” komponenti üzrə mümkün 100 baldan 87.2 bal toplayaraq qiymətləndirmədə yer alan 101 ölkə arasında 1-ci pillədə qərarlaşıb. Qiymətləndirmədə ballar 0-100 intervalında verilib. Bu göstərici tənzimləyici çərçivə, ictimai xidmətlər və əməliyyat səmərəliliyi kimi üç altgöstəricidən formalaşıb. Altgöstəricilərdən olan tənzimləyici çərçivə 94,1 bal, ictimai xidmətlər 89,8 bal və əməliyyat səmərəliliyi isə 77,5 bal olaraq qiymətləndirilib.

Qeyd edək ki, “Business Ready” hesabatı Dünya Bankı tərəfindən hazırlanmış beynəlxalq müqayisəli qiymətləndirmə layihəsidir. Hesabatda qiymətləndirmə biznesin açılması, fəaliyyət göstərməsi (və ya genişləndirilməsi) və bağlanması (və ya yenidən təşkili) zamanı şirkətin həyat dövrünü və bazarda iştirakını təşkil edən on mövzu üzrə aparılır. Hər mövzu üzrə bal tənzimləyici çərçivə, ictimai xidmətlər və əməliyyat səmərəliliyi kimi üç altgöstəricinin qiymətləndirilməsindən formalaşır. Qiymətləndirilən on mövzudan biri də maliyyə xidmətləridir.

2024-cü ildən etibarən açıqlanan hesabat dünyanın əksər iqtisadiyyatlarını əhatə etməklə, özəl sektorun inkişafı baxımından biznes mühitinin kəmiyyət əsaslı qiymətləndirilməsini təqdim edir. Hesabat




çərçivəsində tənzimləyici mühit, şirkətlər və bazarlar üçün nəzərdə tutulmuş dövlət xidmətlərinin əlçatanlığı, eləcə də bu xidmətlərin əməliyyat səmərəliliyi nəzərə alınır.

Cari hesabatda 101 iqtisadiyyat üzrə biznesə hazırlıqla bağlı rəsmi məlumatlar təqdim olunub. Sənəddə qeyd edilib ki, 2026-cı ilin sonunadək 164 ölkənin qiymətləndirilməsi nəzərdə tutulur.

### Sülh müqaviləsi regional inteqrasiyaya töhfə verəcək

Dünya Bankı 2025-ci ilin avqustunda paraflanmış Ermənistan və Azərbaycan arasında sülh müqaviləsinin sabitliyin möhkəmlənməsinə və regional inteqrasiyanın dərinləşməsinə töhfə verəcəyini gözləyir. Bankın mütəxəssisləri vurğulayır ki, Ermənistan və Azərbaycan arasındakı sülh prosesində irəliləyiş Cənubi Qafqazda inteqrasiyanın dərinləşməsi üçün amil ola bilər. Hesabatda digər regionlardakı vəziyyətə də nəzər salınır. Qeyd olunur ki, geosiyasi gərginlik Avropa və Mərkəzi Asiya regionunun iqtisadi perspektivlərinin pisləşməsi riskinin əsas amillərindən biri olaraq qalır. Rusiyanın işğalının uzanması və ya eskalasiyası Ukrayna iqtisadiyyatını daha da zəiflədə və geosiyasi qeyri-müəyyənliyin yüksək səviyyədə qalmasına səbəb ola bilər. Ukraynada döyüş əməliyyatlarının gözləniləndən daha tez başa çatması ölkənin bərpası ilə bağlı investisiyaları sürətləndirə və investorların etimadını artıra bilər.

### Reytinq agentliklərinin proqnozları müsbətdir

Digər xarici iqtisadi institutların ölkəmizlə bağlı proqnozları da ümidvericidir.

Beynəlxalq Valyuta Fondunun (BVF) proqnozlarına görə, Azərbaycanda iqtisadi artım 2026-cı il üzrə 2,5 faiz, 2027-ci ildə isə 2,6 faiz təşkil edəcək. Artımın əsas hissəsi yenə qeyri-neft sahələrindən əldə edilən əlavə dəyərlər əsas hesab olunur. Hazırda qeyri-neft sektorundakı artımın 6-7 faiz təşkil etməsi iqtisadi inkişafın hərəkətverici drayverlərinin artıq daha işlək olmasından xəbər verir. BVF-nin cari və ortamüddətli dövr üzrə ssenarilərinə əsasən, ortamüddətli dövrdə ölkədə qeyri-neft




ÜDM-nin həcminin davamlı artaraq ÜDM-də payı 80-82 faizə çatacaq.

Asiya İnkişaf Bankı 2026-cı ildə Azərbaycan iqtisadiyyatının 2 faiz, Avropa Yenidənqurma və İnkişaf Bankı 2,5 faiz, “ING Group” isə 2026-cı ildə 2,8 faiz, 2027-ci ildə isə 2 faiz artım olacağını fərz edir.

BMT-nin qiymətləndirmələrinə görə, Azərbaycanın iqtisadi artımı 2026-cı ildə 2,7 faiz, 2027-ci ildə isə 2,6 faiz təşkil edəcək.

Beynəlxalq reytinq agentliklərinin qiymətləndirmələri də demək olar ki, oxşardır. “S&P Global” agentliyi ölkəmizdə artımın 2026-cı ildə 2 faiz, “Fitch Ratings” 2,5 faiz, “Moody’s” isə 2,5 faiz olacağını gözləyir.

Qeyd edək ki, qlobal institutların iqtisadi artımla bağlı cari və ortamüddətli dövr üzrə proqnozları Azərbaycan hökumətinin inkişaf ssenariləri ilə təxmini olaraq üst-üstə düşür. İqtisadiyyat Nazirliyi ortamüddətli dövrdə ÜDM-in real artım tempinin orta illik 3,5 faiz, qeyri-neft-qaz ÜDM-in isə 4,9 faiz olacağını proqnozlaşdırır. Belə ki, 2026-cı ildə əlavə dəyərin real artımının 2,9 faiz, 2027-ci ildə 3,3 faiz, 2028-ci ildə isə 3,1 faiz olacağı ehtimal edilir. Qeyri-neft ÜDM-nin isə cari ildə 5 faiz, gələn il 4,8 faiz, 2028-ci ildə isə 5 faiz artacağı gözlənilir.

*E.CƏFƏRLİ*

# Naxçıvanda dəmir yolu xəttinin tikintisi üzrə görüləcək işlər açıqlanıb



“Azərbaycan Dəmir Yolları” QSC (ADY) Naxçıvan Muxtar Respublikasında dəmir yolu xəttinin tikintisini davam etdirir.



ADY-dən bildirilib ki, uzunluğu 194,1 km olan dəmir yolu boyunca 10 stansiyanın yenidən qurulması, 814 mühəndis qurğusunun, o cümlədən 29 körpü, 4 tunel və 12 qalereyanın inşası nəzərdə tutulur.

Bu dəmir yolu xətti Zəngəzur dəhlizinə qoşularaq həm Azərbaycanın əsas hissəsinin Naxçıvan MR ilə birbaşa quru əlaqəsini, həm də Orta Dəhliz və “Şimal-Cənub” dəhlizinin mühüm seqmenti olaraq Türkiyə və Avropa bazarlarına çıxışı təmin edəcək.

# Dövlət Departamenti TRIPP layihəsinin icra çərçivəsinin qəbul edildiyini açıqlayıb

ABŞ Dövlət katibi Marko Rubio və Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan Vaşinqtonda Tramp Beynəlxalq Sülh və Rifah Marşrutunun (TRIPP) icra çərçivəsinin açıqlanması elan etmək üçün görüşüblər.




AZƏRTAC-ın ABŞ Dövlət Departamentinə istinadən verdiyi məlumata görə, qurum sənədin mətnini açıqlayıb. Bildirilir ki, bu sənəd Cənubi Qafqazda davamlı sülhün təmin edilməsi üçün 8 avqust 2025-ci ildə Ağ Evdə qəbul edilmiş öhdəliklərin yerinə yetirilməsi istiqamətində atılan son addımdır.

Qeyd olunur ki, çərçivə Ermənistan ərazisində maneəsiz, multimodal tranzit əlaqəsi yaratmaq məqsədi daşıyan TRIPP-in fəaliyyətə başlaması üçün konkret bir yol göstərir.

Vurğulanır ki, Azərbaycanın əsas hissəsini və Naxçıvan Muxtar Respublikasını birləşdirən TRIPP Trans-Xəzər Ticarət Marşrutunda vacib bir əlaqə yaradır.

“Prezident Trampın ev sahibliyi etdiyi 8 avqust 2025-ci il tarixində keçirilən tarixi Sülh Zirvəsində təsdiq edilmiş prinsipləri əks etdirən TRIPP icra çərçivəsi TRIPP-in ümumi uğuru üçün suverenliyin, ərazi bütövlüyünün və qarşılıqlılığın vacibliyini vurğulayır. TRIPP-in əsas məqsədi regional ticarət və əlaqələri genişləndirməklə, eləcə də Mərkəzi Asiya və Xəzər dənizini Avropa ilə birləşdirən yeni tranzit imkanları yaratmaqla Ermənistan və Azərbaycanın rifahını və təhlükəsizliyini gücləndirmək, Amerika ticarətini daha da inkişaf etdirməkdir”,- deyə açıqlamada qeyd olunur.

# 35-ci Ali Səviyyəli Toplantı...

## Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin Cenevrədə təşkil etdiyi tədbirdə aktual mövzular müzakirə olunacaq

*N.BAYRAMLI*

Yanvarın 15-16-da İsveçrənin Cenevrə şəhərində Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin BMT-nin Cenevrə Ofisi ilə birgə tərəfdaşlıq çərçivəsində təşkil etdiyi 35-ci Ali Səviyyəli Toplantısı keçiriləcək. Toplantı "Parçalanma və transformasiya dövründə multilateralizmin yenidən formalaşdırılması" mövzusuna həsr olunacaq. Toplantıda 30-dan artıq ölkəni təmsil edən 50-dən çox yüksəksəviyyəli iştirakçı - sabiq dövlət və hökumət başçıları, BMT qurumlarının rəhbərləri, beynəlxalq təşkilatların nümayəndələri və tanınmış ekspertlər iştirak edəcək. Tədbir çərçivəsində qlobal çağırışlar, çoxtərəfli əməkdaşlığın gələcəyi və beynəlxalq sistemdə baş verən transformasiya prosesləri müzakirə olunacaq.



Tədbirdə, həmçinin Ümumdünya Səhiyyə Təşkilatının (WHO), BMT-nin Ticarət və İnkişaf üzrə Konfransının (UNCTAD), Ümumdünya Ticarət Təşkilatının (WTO), BMT-nin İnsan Məskənləri Proqramının (UN-Habitat), Beynəlxalq Telekommunikasiya İttifaqının (ITU) və BMT-nin HİV/QİÇS üzrə Birgə Proqramının (UNAIDS) ali səviyyəli rəhbərləri və nümayəndələrinin iştirakı da nəzərdə tutulur.

Qeyd edək ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin BMT-nin Cenevrə Ofisi ilə birgə təşkil etdiyi Ali Səviyyəli Toplantılar çoxtərəfli əməkdaşlığın təşviqi, qlobal gündəlikdə duran əsas məsələlərin müzakirəsi və beynəlxalq dialoqun gücləndirilməsi baxımından mühüm beynəlxalq platforma kimi çıxış edir. Sonuncu - 34-cü Ali Səviyyəli Toplantıda da aktual mövzularla diqqət mərkəzində olub.

Sözügedən tədbir ötən ilin 23-26 sentyabrında BMT Baş Assambleyasının 80-ci sessiyası çərçivəsində baş tutub. "Multilateralizm dönüm nöqtəsində: Çağırışlar və sülhə aparan yollar" mövzusunda keçirilən toplantıda bir sıra ölkə rəhbərləri, sabiq dövlət və hökumət başçıları, beynəlxalq təşkilat rəhbərləri bir araya gələrək qlobal əməkdaşlıq və multilateralizmin aktual çağırışlarını müzakirə ediblər. Bu toplantı BMT Baş Assambleyası çərçivəsində keçirilən paralel tədbirlər arasında ən böyük tədbir hesab olunaraq 50-dən çox ölkədən yüksəksəviyyəli nümayəndələrin, o cümlədən 25-dən çox sabiq və indiki prezidentin, eləcə də 10-dan çox sabiq və indiki Baş nazirin iştirakı ilə keçirilib.

Toplantının işində Mərkəzin həmsədrləri xanım Vayra Vike-Frayberqa və İsmail Serageldin, Albaniya, Bosniya və Herseqovina, Monteneqro prezidentləri, Bolqarıstan və Andorranın Baş nazirləri, Sloveniyanın xarici işlər naziri, Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru, BMT Baş katibinin müavini və BMT Sivilizasiyalar Alyansının Ali nümayəndəsi, BMT-nin Ticarət və İnkişaf Konfransının (UNCTAD) Baş katibi, Çin hökumətinin Avropa məsələləri üzrə xüsusi nümayəndəsi, Beynəlxalq Telekommunikasiya İttifaqının Baş katibi, BMT-nin Ətraf Mühit Proqramının (UNEP), UN-Habitat, BMT-nin İnsanın İmmunçatışmazlığı Virusu/Qazanılmış İmmun Çatışmazlığı Sindromu üzrə Birgə Proqramının (UNAIDS) və BMT-nin Gender Bərabərliyi və Qadınların Səlahiyyətlərinin Gücləndirilməsi üzrə Agentliyinin (UN Women) icraçı direktorları və s. iştirak ediblər. Toplantının proqramında qlobal bərabərlik, iqlim dəyişikliyi, qlobal səhiyyə, texnoloji dəyişikliklər və geosiyasi proseslər üzrə panel müzakirələri, sülhə gedən yol kimi sessiyalar yer alıb. Müzakirə olunan mövzular arasında, həmçinin 2026-cı ildə Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumuna (WUF2026) hazırlıq məsələləri də diqqət mərkəzində olub.



Yeri gəlmişkən, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi hər il keçirilən Qlobal Bakı Forumunun təşkilatçısı qismində də çıxış edir. Mərkəz bundan əlavə, digər beynəlxalq tədbirlərin təşkilatçısı və tərəfdaşı kimi iştirak edir. Buna nümunə olaraq, ötən il 14-15 dekabrda Səudiyyə Ərəbistanı Krallığının paytaxtı Ər-Riyad şəhərində Birləşmiş Millətlər Təşkilatının (BMT) Sivilizasiyalar Alyansının (UNAOC) 11-ci Qlobal Forumunu göstərmək olar. "UNAOC: Bəşəriyyət üçün dialoqun 20 ili - Çoxqütblü dünyada qarşılıqlı hörmət və anlaşmanın yeni dövrünə doğru" şüarı ilə keçirilən foruma Nizami Gəncəvi Beynəlxalq Mərkəzi edib. Forum müxtəlif sivilizasiyalar arasında qarşılıqlı anlaşma, dialoq və əməkdaşlığın gücləndirilməsinə həsr olunmuş yüksəksəviyyəli platforma kimi dünya liderlərini, siyasətçiləri və ekspertləri bir araya gətirib.

Xatırladaq ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamına əsasən, dahi Azərbaycan şairi Nizami Gəncəvinin 870 illik yubiley tədbirləri çərçivəsində 2012-ci il sentyabrın 30-da böyük mütəfəkkirin Vətəni Gəncədə keçirilmiş xüsusi toplantıda təsis edilib. Hazırda Mərkəz qlobal problemlərin həlli yollarını araşdıran və bu barədə dünya ictimaiyyətini məlumatlandıran mühüm beynəlxalq təsisata çevrilib. Məhz bunun nəticəsidir ki, Mərkəzin təşkil etdiyi tədbirlərə maraq ildən-ilə artmaqdadır. Mərkəzin önəmli tədbirlərə ev sahibliyi etməsi, ildən-ilə iştirakçıların sayında nəzərəçarpan artım ona olan diqqətin ifadəsi kimi dəyərləndirilir.

# Qəzza üzrə Sülh Şurası nə vaxt elan olunacaq?

*N.BAYRAMLI*

ABŞ Prezidenti Donald Trampın Qəzza ilə bağlı sülh planı Yaxın Şərqdə vəziyyəti sabitləşdirməyə yönəlib. Ötən il oktyabrın 9-da İsrail və HƏMAS hərəkatı Yaxın Şərqdə vəziyyətin nizamlanması üçün sülh planı çərçivəsində ilk razılaşmaları imzalayıb. Bu münasibətlə Misirin Şarm əl-Şeyx şəhərində Sülh Sammiti keçirilib. Atəşkəsin birinci mərhələsi hərbi əməliyyatların dayandırılmasına və HƏMAS tərəfindən saxlanılan girovların İsrail tərəfindən saxlanılan yüzlərlə fələstinli ilə dəyişdirilməsinə imkan yaratdı. Bəzən qarşılıqlı ittihamlar səslənsə də, prinsip etibarı ilə, razılaşma qüvvədə qalıb.



## Böyük Britaniya Sülh Şurasına qoşulmaq imkanını nəzərdən keçirir

Donald Trampın 20 maddəlik sülh planı çərçivəsində Qəzza Sülh Şurasının yaradılması nəzərdə tutulur. Şura yeni texnokratik Fələstin hökumətinin yaradılmasına, HƏMAS-ın tərksilah edilməsinə, beynəlxalq təhlükəsizlik qüvvələrinin yerləşdirilməsinə, əlavə İsrail qoşunlarının çıxarılmasına və Qəzzanın yenidən qurulmasına nəzarət etməlidir.

"Bloomberg" agentliyinin məlumatına görə, ABŞ lideri yaxın günlərdə müharibədən sonrakı planların həyata keçirilməsi üçün Qəzza üzrə Sülh Şurasının tərkibini elan etməyi nəzərdə tutur. Nəşr qeyd edir ki, şuranın tərkibinin elan olunduqdan sonra ilk iclasının Davos Forumu çərçivəsində keçiriləcəyi gözlənilir. Məlumata görə, şura dövlət və hökumət başçılarından ibarət olacaq və ona şəxsən Tramp rəhbərlik edəcək. Trampın sədrliyi ilə təxminən 15 dünya liderinin şuraya daxil olacağı bildirilir. Şuraya qoşulması gözlənilən ölkələr arasında Böyük Britaniya, Almaniya, Fransa, İtaliya, Səudiyyə Ərəbistanı, Qətər, Misir və Türkiyə də var. İsrailin Baş naziri Benyamin Netanyahu planı dəstəkləyib, lakin HƏMAS-ın silahsızlaşdırılması və Qəzzanın tam demilitarizasiyası üzərində israr edir.

Yanvarın 7-də isə Qahirədə görüşən Misir və Avropa İttifaqı liderləri oktyabr atəşkəsini izləmək üçün Qəzzaya beynəlxalq sabitləşdirmə qüvvələrinin yerləşdirilməsini tələb ediblər. "Vəziyyət son dərəcə ağırdır. HƏMAS tərksilah olmaqdan imtina edir və sülh planının növbəti mərhələsinə doğru irəliləyişi əngəlləyir. İsrail isə beynəlxalq QHT-lərin fəaliyyətini məhdudlaşdırmaqla humanitar yardıma çıxışı ciddi şəkildə təhlükə altına alır", - deyə Aİ-nin ali nümayəndəsi Kaya Kallas bildirib. O vurğulayıb ki, Qəzzada humanitar vəziyyətin hazırkı səviyyəyə qədər



pisləşməsi üçün heç bir səbəb yoxdur.

Bu arada, BMT-nin Qaçqınlar Agentliyinin rəhbəri xəbərdarlıq edib ki, İsrailin təşkilata təzyiqi xidmətlərdə "böyük boşluq" yaratmaq riski daşıyır. BMT-nin Fələstin Qaçqınları üzrə Yardım və İşlər Agentliyinin (UNRWA) baş komissarı Filip Lazzarini isə jurnalistlərə bildirib ki, başqa heç bir təşkilatın bu ərazilərdə səhiyyə, təhsil və sosial xidmətlər göstərmək qabiliyyəti və ya "icma etibarı" yoxdur.

Yanvarın 12-də isə ABŞ, Türkiyə, Misir və Qətər Qəzza sektoru üzrə sülh planının ikinci mərhələsinin hazırlanmasına həsr olunmuş onlayn görüş keçiriblər. Bununla bağlı Türkiyə Xarici İşlər Nazirliyi məlumat yayıb. "Türkiyə xarici işlər naziri Hakan Fidan Qəzza üzrə sülh planının ikinci mərhələsinin hazırlanmasına həsr olunmuş onlayn görüşdə iştirak edib. Dekabr ayının sonunda Mayamidə keçirilən görüşün davamı olan müzakirələrdə, həmçinin ABŞ, Misir və Qətərdən olan rəsmi şəxslər iştirak ediblər", - deyə məlumatda bildirilib.

Böyük Britaniyaya gəlincə, Baş naziri Kir Starmer ABŞ Prezidenti Donald Tramp tərəfindən yaradılması planlaşdırılan Qəzza Sülh Şurasına qoşulmaq imkanını nəzərdən keçirir. Böyük Britaniya diplomatları hazırda ABŞ Dövlət Departamentindən şuranın səlahiyyətləri və üzvlərinin rolu ilə bağlı daha ətraflı məlumat almağa çalışır. "The Sunday Times" nəşri Kir Starmerin bu quruma qoşulmaq üçün dəvət edildiyini yazıb.

Bütün bunlar göstərir ki, beynəlxalq birlik Qəzzada sülhün və sabitliyin təmin olunmasına çalışır. Lakin hələ də davam edən gərginlik Yaxın Şərqdə qan tökülməsinin dayandırılması üçün daha böyük səylər tələb edir.

# Stiven Uitkoff və Cared Kuşner Moskvaya səfər edə bilərlər



ABŞ Prezidentinin xüsusi elçisi Stiven Uitkoff və Cared Kuşner yaxın günlərdə yenidən Rusiya paytaxtına səfər edə bilərlər. Onların RF Prezidenti Vladimir Putin ilə görüşəcəyi ehtimal olunur. Bu barədə Rusiya mediası "Bloomberg" agentliyinə istinadla məlumat yayıb.

Mənbələr bildirirlər ki, nəzərdə tutulan görüşün yanvar ayında keçiriləcəyi gözlənilir. Amma onlar vurğulayırlar ki, planlar hələ ki, tam razılaşdırılmayıb. Qeyd olunur ki, İranda baş verən hadisələrin inkişafı ilə əlaqədar səfərin vaxtı dəyişdirilə bilər.

# ABŞ təxliyəyə başladı



ABŞ Yaxın Şərqdəki aviabazalarından hərbçilərin təxliyəsinə başlayıb. AZƏRTAC "Reuters" agentliyinin mənbələrinə istinadla xəbər verir ki, ABŞ ordusu bəzi hərbçilərə çərşənbə axşamınadək Qətərdəki "Əl-Udeyd" aviabazasından çıxmağı tövsiyə edib. ABŞ-ın Dohadakı səfirliyi hələlik vəziyyətlə bağlı şərh verməyib.

Qeyd edək ki, "Əl-Udeyd" Birləşmiş Ştatların Yaxın Şərqdəki ən böyük hərbi bazasıdır. Bu bazada təxminən 10 min amerikalı hərbçi xidmət edir. ABŞ 2025-ci ilin iyun ayında İrana aviazərbələr endirmədən öncə hərbçilərin bir hissəsini regiondakı bazalardan çıxarmışdı.

Yanvarın 12-də Prezident Donald Tramp ABŞ-ın hərbi və kommersiya obyektlərinə hücum edəcəyi təqdirdə İranı "misli görünməmiş zərbələrlə" hədələyib. Ağ Evin rəhbəri, həmçinin iğtişaşlarda iştirak edən insanları hökumət binalarını ələ keçirməyə çağırıb və "köməyin artıq yolda olduğunu" deyib.




# G7-dən Ukraynanın təhlükəsizliyinə dəstək

## Davosda ABŞ Prezidenti Donald Trampla görüş olacaq

Rusiya-Ukrayna müharibəsi ilə bağlı sülh prosesi beynəlxalq müstəvidə əsas müzakirələrdən biridir. ABŞ Ukraynanın ərazi güzəştlərinə getməsinə çalışsa da, Kiyev buna hələ də müqavimət göstərməkdədir. Bir müddət öncə Ukrayna Tramp administrasiyasına ABŞ-ın Rusiya ilə münaqişənin həllinə dair son təkliflərinə cavab təqdim etmişdi. Müzakirələrin mövzusu isə üç sənəddən ibarət olub: münaqişənin həllinə dair ümumi çərçivə; Ukrayna üçün təhlükəsizlik təminatları; Ukraynanın bərpasına dair plan.

### Vaşinqton və Kiyev razılığa gəlib?

"Axios" portalı bir neçə gün öncə yazmışdı ki, ABŞ administrasiyası və Kiyev rəsmiləri Ukrayna böhranının mümkün həllini nəzərdə tutan sülh planı ilə bağlı razılığa gəliblər. Portalın məlumatına görə, Ağ Ev Trampın planının demək olar ki, bütün aspektləri üzrə Ukrayna ilə razılığa gəlib və indi Rusiya rəhbərliyindən bu təklifə aydın cavab almaq istəyir. Daha əvvəl nəşr Rusiya Prezidentinin xarici ölkələrlə investisiya və iqtisadi əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Kirill Dmitriyevin Ukrayna və Avropa ölkələrinin nümayəndələri ilə ikigünlük danışıqlardan sonra Parisdə amerikalı Stiven Uitkoff və Cared Kuşnerlə görüşdüyü barədə məlumat vermişdi.

Hazırda danışıqların əsas mövzusu Ukraynanın təhlükəsizlik təminatı ilə bağlıdır. Yeri gəlmişkən, gələn həftə Kiyevin G7 müttəfiqləri atəşkəsdən sonra Ukraynaya təhlükəsizlik zəmanətlərinə şəxsi dəstəyini təmin etmək üçün Davosda ABŞ Prezidenti Donald Trampla görüşəcəklər. Bu barədə "Financial Times" qəzeti məlumat yayıb. Planlarla tanış olan dörd rəsmi qəzetə bildirib ki, "İtaliya, Almaniya, Fransa, Kanada və Böyük Britaniya liderləri, eləcə də Avropa Komissiyasının prezidenti gələn həftə Dünya İqtisadi Forumunda Tramp və Zelenski ilə liderlərin nəzərdə tutulan görüşündə iştirak etməyi planlaşdırırlar".

Rəsmilər, xüsusilə 21 yanvarda planlaşdırılan görüşün təfərrüatlarını müzakirə edirlər və bu görüşə "könüllülər koalisiyası"nın digər liderləri də qatıla bilər. Rəsmilərin sözlərinə görə, koalisiyanın milli təhlükəsizlik müşavirləri də ayrıca görüş planlaşdırırlar. "Bloomberg"in məlumatına görə, liderlərin Davosdakı görüşündə ötən həftə Parisdə müharibənin təkrarlanmasının qarşısını almaq üçün əldə edilən razılaşmalara Trampın təsdiqinin alınması gözlənilir. Bu, Trampın Ukrayna üzrə xüsusi nümayəndəsi və Avropa müdafiə qüvvələrinin komandanının da daxil olduğu "qətiyyətlilər koalisiyası"nın görüşüdür. Nəşr bildirib ki, "İtaliya, Almaniya, Fransa, Kanada və Birləşmiş Krallıq liderləri təhlükəsizlik zəmanətləri ilə bağlı ABŞ prezidentinin şəxsi dəstəyini alacaqlar".

### Avropa Trampın Rusiyayönümlü bəyanatlarından narahatdır

Eyni zamanda, Avropa Rusiya ilə sülh razılaşması əldə edilərsə, ABŞ Prezidentinin Ukraynaya şəxsi dəstəyinin miqyasından narahatdır. Son bir ildə onun münaqişə ilə bağlı kəskin Rusiyayönlü açıqlamalar verdiyi bir neçə hadisə şübhələr doğurub. "ABŞ olmadan bunların heç biri baş verməyəcək. Trampın, əslində, nə düşündüyü hələ də bəlli deyil",-deyə danışıqlarda iştirak edən bir Avropa rəsmisi, Britaniya və Fransanın atəşkəsdən sonra Ukraynaya qoşun göndərmək vədinə istinad edərək qeyd edib. Nəşr əlavə edib ki, altı liderin, eləcə də Avropa Komissiyasının prezidenti Ursula Fon der Lyayenin iştirakı Davosda keçirilən tədbirdə G7 ölkələri üçün rekord göstəricidir.

Xatırladaq ki, yanvarın 9-da Ukrayna və Böyük Britaniya Kiyevdə cari il üçün müdafiə sahəsində əməkdaşlıq üzrə yol xəritəsi imzalayıb. Sənəddə Rusiyanın yeni hücumları fonunda hava hücumundan müdafiə, pilotsuz uçuş aparatları və aviasiya sahələrində birgə layihələr müəyyənləşdirilib. Ayrıca olaraq Ukrayna və Böyük Britaniya hava hücumundan müdafiə və uzaqmənzilli silahlar sahəsində birgə strateji layihələrin inkişafını razılaşdırıblar. Bununla yanaşı, Britaniya Silahlı Qüvvələrinin Müdafiə Qərargahının rəisi, marşal Riçard Nayton bildirib ki, Ukraynanın təhlükəsizliyinə tam əminlik olmadığı təqdirdə, münaqişə başa çatdıqdan sonra belə Ukraynaya qoşun göndərilməyəcək.

Riçard Nayton Britaniya qoşunlarının Ukraynaya göndərilməsi halında təhlükəsizlik zəmanətləri ilə bağlı sualını cavablandırarkən qeyd edib ki, nazirlərin dəstəyi ilə qərarlar qəbul edilərkən hərbi komandirlərin rolu risk səviyyəsini qiymətləndirmək və yerləşdirilmənin faydalarının potensial risklərdən üstün olmasını təmin etməkdir. O, vurğulayıb ki, Ukraynada yerləşdiriləcək Britaniya qoşunlarının kifayət qədər təhlükəsizliyinə dair təminat olsa belə, real əməliyyat mühitində sıfır risk anlayışı mövcud deyil.



### Zelenski: Sənəd üzərində iş yekun mərhələdədir

Bu arada, Ukrayna Prezidenti Volodimir Zelenski ölkə üçün ABŞ-ın təhlükəsizlik zəmanətləri ilə bağlı sənəd üzərində işin yekun mərhələsində olduğunu bildirib: "Növbəti iki həftə üçün görüşlər, sənədlərin hazırlanması və mümkün imzalanma üzrə qrafiki müzakirə etdik. ABŞ tərəfindən Ukrayna üçün təhlükəsizlik zəmanətləri haqqında sənədi tamamlamaq və ali səviyyədə nəzərdən keçirilmək üçün təqdim etmək tapşırığını verdim. Bu, tarixi səviyyədə bir sənəd olmalıdır". Zelenski, həmçinin Ukraynanın bərpası və iqtisadi inkişafına aid sənədlərin də müzakirə olunduğunu vurğulayıb. O, Baş nazir Yuliya Sviridenkoya, baş nazirin müavini Taras Kaçkaya və iqtisadiyyat naziri Aleksey Sobolevə Ukrayna ilə ABŞ arasında gələcək sazişlərin, eləcə də Ukrayna-Avropa-ABŞ formatında üçtərəfli razılaşmaların bütün iqtisadi aspektlərinin tam dəstəklənməsini və ekspertizasını təmin etmək tapşırığı verib.

Ukrayna Prezidenti tərəfdaşlardan daxil olacaq bərpa vəsaitlərindən istifadə üçün zəruri mexanizmlərin müəyyən edildiyini qeyd edib. O, həmçinin ABŞ və Rusiya arasında danışıqların nəticələrinə əsasən Moskvanın real şərtlərlə müharibəni dayandırmağa hazır olub-olmaması ilə bağlı aydın cavab gözlədiyini bildirib. Onun sözlərinə görə, əks halda, Rusiyaya təzyiq gücləndirilməlidir. Buna kölgə donanması, sanksiyalardan yan keçməyə imkan verən maliyyə sxemləri və ixrac gəlirlərinə qoyulan məhdudiyyətləri artırmaqla nail olmaq olar.

*N.BAYRAMLI*



# ABŞ-ın Qrenlandiya ilə bağlı mövqeyi dəyişmir

## Konqresə adanın ilhaq edilməsinə imkan verən qanun layihəsi təqdim olunub

ABŞ milli təhlükəsizlik səbəbləri ilə Qrenlandiya üzərində nəzarəti əldə etməklə bağlı planını həyata keçirməkdə israrlıdır. Əhalisi cəmi 57 min nəfər olan, dünyanın ən böyük adası sayılan Qrenlandiya NATO-nun müstəqil üzvü deyil, lakin Danimarkanın Qərb alyansındakı üzvlüyü çərçivəsində müdafiə olunur. Avropa ilə Şimali Amerika arasında strateji mövqedə yerləşən ada onilliklərdir ABŞ-ın raketdən müdafiə sistemi üçün mühüm əhəmiyyət kəsb edir. Onun zəngin mineral ehtiyatları da Vaşinqtonun Çindən asılılığı azaltmaq məqsədləri ilə üst-üstə düşür.

Prezident Donald Tramp dəfələrlə Qrenlandiyanın ABŞ-a birləşdirilməsinin vacibliyini bildirib. O, ilk prezidentlik müddətində Qrenlandiyanı satın almağı təklif edib, daha sonra isə 2025-ci ilin mart ayında adanın ilhaq ediləbiləcəyinə əminliyini ifadə edərək, imtina ediləcəyi təqdirdə Danimarkanı ticarət tarifləri ilə hədələyib. Danimarkanın Baş naziri Mette Frederiksen isə bu iddiaları rədd edərək, Qrenlandiyanın krallığın ayrılmaz hissəsi olduğunu vurğulayıb. Eyni zamanda, Donald Tramp dəfələrlə Rusiya və Çinə məxsus gəmilərin Qrenlandiya ətrafındakı sularda patrul apardığını bildirib, lakin Danimarka bu iddiaları da təkzib edib. Kopenhagen Rusiya və Çinin Qrenlandiyanı hədəfə almaq cəhdləri ilə bağlı iddiaları rədd edir.



**Layihənin müəllifi kimdir?**

Bütün bunların fonunda ABŞ Nümayəndələr Palatasının üzvü Rendi Fayn Vaşinqtonun Qrenlandiyanı ilhaq etməsinə imkan verən qanun layihəsini təqdim edib. Bu barədə onun rəsmi saytında dərc olunmuş bəyanatda bildirilib. Qanun layihəsi Amerika Prezidentinə "Danimarka Krallığı ilə danışıqlar aparmaq, Qrenlandiyanı ilhaq etmək və ya onu başqa üsullarla ABŞ ərazisi kimi əldə etmək də daxil olmaqla zəruri tədbirlər görmək" səlahiyyəti verir. Sənədə əsasən, bundan sonra Qrenlandiyanın ABŞ ərazisi hesab ediləcəyi nəzərdə tutulur. Rendi Faynın sözlərinə görə, qanun layihəsi "Arktikada ABŞ-ın milli maraqlarını qorumaq və Çin və Rusiyadan gələn artan təhdidlərə qarşı durmaq" məqsədi daşıyır.

**"ABŞ Qrenlandiyanı bu və ya digər şəkildə əldə edəcək"**

Yeri gəlmişkən, Donald Tramp bir daha Qrenlandiyaya iddialı olduğunu bəyan edib. O, jurnalistlərə açıqlamasında bildirib ki, ABŞ bunu etməsə, adanı Rusiya və ya Çin Qrenlandiyanı ələ keçirəcək: "Bizim Rusiya və ya Çin ilə qonşu olmaq niyyətimiz yoxdur. Mən buna icazə verməyəcəm. Qrenlandiya razılaşmanı bağlamalıdır, çünki Qrenlandiya da Rusiyanın və ya Çinin onu ələ keçirməsini istəmir. ABŞ Qrenlandiyanı bu və ya digər şəkildə əldə edəcək. Asan yolla bir razılaşma əldə etmək istərdim. Amma bunu asan yolla etməsək, çətin yolla edəcəyik".

Qrenlandiya və NATO-nun belə bir addıma qarşı çıxması və bunun NATO-nu təhlükə altına qoya biləcəyi ilə bağlı suala cavabında Tramp deyib ki, əgər o, prezident olmasaydı, NATO mövcud olmazdı: "NATO-nun ABŞ-a daha çox ehtiyacı var".

**Avropa vəziyyətdən çıxış yolları axtarır**

ABŞ liderinin Qrenlandiyanın mümkün güc yolu ilə ələ keçirilməsi ilə bağlı yeni bəyanatları Avropa paytaxtlarında narahatlıqları artırır. İsveçin "Dagens Nyheter" nəşri xəbər verir ki, Danimarka Ağ Evlə qarşıdurmanın daha da ağırlaşacağından ehtiyat edərək məsələni şüurlu şəkildə Avropa İttifaqı səviyyəsinə çıxarmaqdan yayınır. Buna baxmayaraq, aparıcı Avropa dövlətləri olan Almaniya, Fransa, Böyük Britaniya, İtaliya, İspaniya və Polşa Kopenhagenə dəstəklərini açıq şəkildə ifadə edərək vurğulayıblar ki, Qrenlandiyanın taleyi yalnız Danimarka və adanın özü tərəfindən həll oluna bilər. Bu həmrəylik siqnalı gələn həftə Danimarkanın xarici işlər naziri Lars Lökke Rasmussenin amerikalı həmkarı ilə planlaşdırılan görüşü ərəfəsində Danimarka hökuməti üçün mühüm əhəmiyyət kəsb edir.

Eləcə də Brüsseldə böhran idarəçiliyi fəallaşıb, lakin Avropa İttifaqı konkret cavab tədbirlərinin müzakirəsi hələlik təxirə salınıb. Bununla paralel olaraq, Aİ ölkələrində diplomatlar siyasi bəyanatlardan iqtisadi təzyiqə qədər mümkün reaksiya ssenariləri üzərində işləyirlər. Fransa isə açıq şəkildə kollektiv "Avropa cavabı"nın hazırlanmasına başlandığını bəyan edərək bəyan edib ki, burada təkcə ABŞ-la münasibətlər deyil, həm də NATO-nun gələcəyi sual altındadır. Danimarkanın Baş naziri Mette Frederiksen də xəbərdarlıq edib ki, NATO-ya üzv olan bir dövlətin digərinə qarşı hərbi müdaxiləsi alyansın əsaslarının sarsıdılması demək olardı. Mümkün çıxış yolu kimi NATO-nun vasitəçiliyi və formal anneksiya olmadan Qrenlandiyada ABŞ-ın hərbi mövcudluğunun gücləndirilməsi nəzərdən keçirilir. Aİ də ticarət rıçaqlarını işə salmağa hazır olduğunu bildirir. ABŞ-la əvvəllər razılaşdırılmış tarif sazişi Vaşinqton təhdidlərindən imtina etməzsə, pozula bilər. Avropalı diplomatlar təhlükəsizlik və Qərbin birliyinə zərər vurmadan həm hərbi, həm də ticarət qarşıdurmasından yayınmağa imkan verəcək bir həll tapmağa ümid edirlər.

Digər tərəfdən, Avropanın bir sıra ölkələri ABŞ-ın təhdidləri fonunda Arktikada NATO-nun hərbi mövcudluğunun artırılmasını təklif edirlər. "Tagesschau" xəbər xidməti bildirir ki, Almaniyanın xarici işlər naziri Yohan Vadeful Şimali Atlantikada təhlükəsizlik məsələlərinin NATO çərçivəsində həll olunmasının vacibliyini ifadə edib. Onun sözlərinə görə, dünya dəyişir və yaranan yeni təhlükəsizlik çağırışlarına cavablar isə Alyans daxilində tapılmalıdır.

Böyük Britaniya başda olmaqla bir neçə NATO üzvü "Arktika Keşikçisi" adlı müşahidə missiyasının yaradılmasını irəli sürüb. Bu təşəbbüs ABŞ-ın regionda təhlükəsizliyin zəif təmin edildiyi barədə arqumentlərini zəiflətmək məqsədi daşıyır. Xəbərdə qeyd olunub ki, Böyük Britaniya və Almaniya digər Avropa ölkələri ilə birlikdə Qrenlandiyada Alyansın mövcudluğunun gücləndirilməsi barədə məsləhətləşmələr aparır.

Öz növbəsində, Qrenlandiya hökuməti də ABŞ-ın region üzərində nəzarəti ələ keçirmək niyyətini dəstəkləmir və NATO-nun köməyinə ümid edir. Bu barədə "Le Figaro" qəzeti Qrenlandiya hökumətinin bəyanatına istinadla məlumat yayıb. Bəyanatda deyilir: "Qrenlandiya heç bir şəkildə ABŞ-ın geniş ərazini "ələ keçirmək" istəyini qəbul etmir və müdafiəsinin NATO çərçivəsində təmin olunması üçün səylərini artırır". Sənəddə vurğulanır ki, Qrenlandiyanın hakim koalisiyası bu cür yanaşmanı heç bir halda qəbul edə bilməz. Ada hökuməti, həmçinin bəyan edib ki, Qrenlandiya həmişə Qərb müdafiə alyansının bir hissəsi olacaq.

*Nardar BAYRAMLI*

YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Bakmətbuat” MMC - 0124314313
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**






# Dənizi hədiyyə verirəm sənə...

## Nəbi Xəzrinin anım günüdür

*Yeganə BAYRAMOVA*

Azərbaycan ədəbiyyatında elə simalar var ki, onların yaradıcılığı yalnız bədii-estetik dəyər daşımır, eyni zamanda, bir dövrün ruhunu, ictimai-siyasi nəfəsini, xalqın daxili ağrı və ümidlərini özündə cəmləşdirir. Nəbi Xəzri məhz bu nadir simalardan idi. Onun fenomeni təkcə şair kimi deyil, ziyalı, vətəndaş və milli düşüncənin daşıyıcısı kimi formalaşmasında gizlidir.

Nəbi Xəzri poeziyaya romantik duyğularla gəlsə də, bu romantika heç vaxt reallıqdan qopmadı. O, Xəzərin dalğaları kimi həm coşqun, həm də dərin idi. Şeirlərində sevgi, vətən, zaman, insan taleyi paralel axarda inkişaf edir. Bu, təsadüfi deyildi. Çünki Nəbi Xəzri üçün poeziya sadəcə söz oyunu yox, məsuliyyət əsas idi. O, şair sözünün xalqın taleyindəki rolunu yaxşı dərk edirdi.

Onun yaradıcılığında Vətən anlayışı xüsusi yer tutur. Lakin bu vətənpərvərlik pafoslu şüarlardan uzaqdır. Nəbi Xəzri vətəni təbiətin dili ilə, insanın daxili ağrısı ilə, tarixin sükutu ilə danışdırırdı. Xəzər dənizi onun poeziyasında sadəcə coğrafi məkan deyil, milli yaddaşın, zamanın və taleyin simvoludur. Elə “Xəzri” təxəllüsünün özü də bu bağlılığın poetik ifadəsidir.

Nəbi Xəzri fenomeninin əsas cəhətlərindən biri də onun ictimai mövqeyidir. O, sovet ideoloji çərçivələri daxilində yaşasa da, milli kimliyini qorumağı bacaran sənətkarlardandır. Sözün açıq deyilmədiyi, fikrin dolayı yolla ifadə olunduğu bir dövrdə Nəbi Xəzri simvolik düşüncənin gücündən istifadə edərək milli ruhu yaşatdı. Bu, həm cəsarət, həm də yüksək intellekt tələb edirdi.

Bu gün xalq şairinin vəfatından 19 il ötür. 2007-ci il yanvarın 15-i kəskin insultdan dünyasını dəyişdi. Dəyişməyən isə onun bu illər ərzində yazıb-yaratdığı əsərləri, şeirləri və nəğmələrə çevrilərək sevə-sevə oxunan şeirləri oldu.

“Pəncərəmə qondu çiçək”, “Dərələr”, “Külək”, “Nar ağacı, nar çiçəyi” və s. Hər nəğmə oxunduqca, hər kitab işıq üzü gördükcə, oxucu yazıçının yaradıcılığı ilə müxtəlif rakurslardan tanış olmağa başladı. Onun şeir, dramaturgiya, nəsr və tərcümə sahəsində fəaliyyəti, dövlət işində çalışması heç zaman şair hissiyyatına, incə misraların yaranmasına mane olmadı. Əksinə, çoxşaxəli fəaliyyət Nəbi Xəzri yaradıcılığını daha da zənginləşdirdi.




Nəbi Xəzri 1957-ci ilədək Azərbaycan Yazıçılar İttifaqında məsləhətçi, 1957-1958-ci illərdə “Ədəbiyyat və incəsənət” qəzeti redaksiyasında ədəbi işçi olub. 1958-1965-ci illərdə Azərbaycan Yazıçılar İttifaqının katibi, 1971-1974-cü illərdə Azərbaycan mədəniyyət nazirinin müavini vəzifələrini icra edib. Azərbaycanın Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqə Cəmiyyətinin rəyasət heyətinə sədrlik etməsi Nəbi Xəzrinin üzərinə daha böyük məsuliyyət qoyub.

“İllər və sahillər” (1969), “Ulduz karvanı” (1979), “Nəsillər-əsrlər” (1985), “Ağ şimşəklər” (1986), “Torpaq sənə and içirəm” (1989), “Ömür çinarından yarpaqlar” (1995), “Əsrin qanlı laləsi” (1996) və s. kitablarındakı əsərlər mövzunun məzmunundan asılı olaraq, yazıçının maraqlı düşüncə və bədii fikri oxucuya təqdim edilir. “Peyğəmbər”, “Atillanın atlıları” poemalar da onun yaradıcılığında özəl yer tutur.

1944-cü ildə Azərbaycan Dövlət Radiosuna elan edilmiş diktor müsabiqəsindən keçən Nəbi Xəzri 1965-1971-ci illərdə Azərbaycan Dövlət Radio və Televiziya Dövlət Komitəsinin televiziya işləri üzrə sədr müavini işləyib. Şairin sevilən bəstəkar Tofiq Quliyevlə, Emin Sabitoğlu ilə uğurlu əməkdaşlığı neçə-neçə populyar nəğmələrin yaranmasına səbəb olub. Nəbi Xəzrinin bir çox sözlərinə mahnılar bəstələnib. Bu mahnılar Şövkət Ələkbərova, Zeynəb Xanlarova və “Qaya” qrupu, Gülağa Məmmədov, Müslüm Maqomayev, Mirzə Babayev, Elmira Rəhimova, Flora Kərimova və digər sənətkarların ifalarında sevilə-sevilə dinlənilib. Onlar arasında Müslüm Maqomayevin bəstələdiyi və oxuduğu məşhur “Azərbaycan” mahnısı isə indi də ölkəmizə həsr edilmiş ən uğurlu mahnı kimi xarici qastrol səfərlərində, nüfuzlu mədəniyyət günlərində dinləyənləri heyran edir. Bu, bəstəkarla yanaşı, həm də mahnı mətninin müəllifi Nəbi Xəzri poeziyasının ruhu və üslubuyla bağlıdır.

Bu gün də o nəğmələr səslənəndə bir çoxlarını o illərə aparır, qəribə duyğular oyadır insanda, neçə-neçə xoş xatirələr yada düşür. Nə qədər ki, bu mahnılar, şeirlər bizlərə nəyisə xatırladacaq, bu misraların müəllifi, sevimli xalq şairi Nəbi Xəzri poeziyası da daim oxunacaq və yaşayacaq...

# Axtarış üçün üz tutduğumuz ilk ünvan!




## 25 yaşlı “Vikipediya”...

Dinamik, sürətlə inkişaf edən yüksək texnologiyalar əsrində yaşayırıq. Hazırda bütün dünyada informasiyaların əldə olunması üçün müxtəlif vasitələrdən istifadə etmək insanların həyat tərzinə çevrilib. Həmin vasitələrdən biri, hətta ən önəmlisi “Vikipediya” adlı elektron ensiklopediyadır.

Vaxtaşırı burada olan məlumatdan yararlanırıq. Bəllidir ki, bu gün internet üzərində hər hansı bir məlumat axtaran zaman ilk müraciət etdiyimiz ünvan məhz “Vikipediya”dır.



Qeyd edək ki, layihənin tarixi 1999-cu ildən başlayır. Layihənin baş redaktoru, təşkilatçısı Larri Senqer və “Bomis” kompaniyasının icraçı direktoru, layihəni maliyyələşdirən Cimmi Uels viki texnologiyası əsasında onlayn ensiklopediya yaratmaq qərarına gələrək onu Nupediya (NuPedia.com) adlandırdılar.

Nupediya virtual ensiklopediyası 2000-ci ilin mart ayından fəaliyyətə başlayıb. İngilis dilində yaradılmış bu ensiklopediyanı viki-sayt hesab etmək olmazdı. Onun əsasını alim və mütəxəssislər tərəfindən məqalələrin dəqiq yoxlanması təşkil edirdi. Nupediyaya məqalələrin daxil olunması prosesi çox ləng getdiyindən onun bağlanması haqqında qərar qəbul edildi və 2003-cü ilin sentyabrında bağlandı. Nupediya ensiklopediyası bağlanarkən orada 25 tamamlanmış, 74 yoxlama prosesində olan məqalə var idi.

Nupediya ensiklopediyası əsasında yaradılmış “Vikipediya” açıq ensiklopediyası 2001-ci il yanvarın 15-də internetdə fəaliyyət göstərməyə başlayıb. Qısa müddət ərzində isə internetin ən populyar layihələrindən birinə çevrilib. Nupediyadan fərqli olaraq “Vikipediya”da məqalələr könüllü internet istifadəçiləri tərəfindən yoxlanılır ki, bu da ensiklopediyanın çox sürətlə zənginləşməsinə səbəb olub. Ensiklopediyanın adı ingilis texniki termini olan “wiki” (saytın fəaliyyətinin əsasını təşkil edən texnologiya; söz özü havay dilində “tez” deməkdir) və “encyclopedia” (ensiklopediya) sözlərindən yaranıb.

2002-ci il yanvarın 13-də isə “Vikipediya”nın Azərbaycan dilində bölməsi yaranıb. Geridə qalan illər ərzində Azərbaycan dilində “Vikipediya” xeyli inkişaf edərək ölkəmizdə ən çox oxunan onlayn ensiklopediya olaraq öz yerini alıb. Son statistikalar da bunun bariz nümunəsidir. Son illər “Vikipediya”nın Azərbaycan dilində olan səhifələri 34 milyon dəfə ziyarət edilib, son bir il ərzində isə bu rəqəm 358 milyondur.

Bu gün “Vikipediya” ən çox daxil olunan saytlar arasında yüksək yerlərdə qərarlaşır. Belə ki, alexa.com-un açıqladığı statistikaya əsasən, dünyada və ölkəmizdə ən çox daxil olunan 5-ci saytdır. Bu amil “Vikipediya”nın insanlar arasındakı vacibliyinin və əhəmiyyətinin göstəricisidir.

Yeri gəlmişkən, yanvarın 15-i Beynəlxalq Vikipediya Günü kimi qeyd edilir. Bu il “Vikipediya”nın yaradılmasının 25 ili tamam olur. Şagirddən müəllimə, böyükdən kiçiyə, mübahisə edənlər, dünya görüşünü genişləndirənlər, qısacası hər kəs bu “çeşmə”dən az-çox su içir. “Vikipediya” internetdə azad şəkildə yayımlanan, dünyanın bir çox dillərində viki texnologiyasının tətbiqi ilə könüllü istifadəçilər tərəfindən inkişaf etdirilən ensiklopediyadır. Azad dedikdə, “Vikipediya”dakı məlumatların oxunmasının və istifadəsinin azadlığı ilə yanaşı, orada redaktə etməyin azadlığı da nəzərdə tutulur.

*Yeganə BAYRAMOVA*

*İdman*

## “Barselona”nın sabiq məşqçisi “Rubin”də işləyəcək



İspaniyanın “Barselona” klubunun gənclər komandalarına rəhbərlik etmiş Frank Artiqa Rusiyada işləyəcək. AZƏRTAC xəbər verir ki, 49 yaşlı ispan çalışdırıcı “Rubin” (Kazan) komandasının baş məşqçisi olub.

Tərəflər 2027-ci ilin yayına qədər müqavilə imzalayıblar.

## “Ayaks” İbrahimoviçin oğlunu transfer edib




Niderlandın “Ayaks” komandası heyətinə yeni futbolçu cəlb edib. AZƏRTAC klubun rəsmi saytına istinadən xəbər verir ki, Amsterdam təmsilçisi Maksimilian İbrahimoviçi transfer edib. 19 yaşlı oyunçu isveçli veteran futbolçu Zlatan İbrahimoviçin oğludur. O, son olaraq “Milan”ın gənclər komandasında çıxış edib.

## “Səbail” futbolçusunu “Karvan-Yevlax”a icarəyə verib




“Səbail” müdafiəçisi Emin Rüstəmovu mövsümün sonuna qədər “Karvan-Yevlax” klubuna icarəyə verib. Bu barədə AZƏRTAC-a klubdan məlumat verilib.

U-21 millisinin formasının geyinən 21 yaşlı futbolçu cari mövsümdə “dənizçilər”in heyətində 12 turda 9 dəfə meydana çıxıb.

## Bosniyalı keçmiş futbolçu Azərbaycanda işləmək istəyir



Vaxtilə “Qəbələ”də çıxış etmiş Bosniya və Herseqovina millisinin sabiq futbolçusu Ermin Zets Azərbaycanda işləmək istəyir. Veteran futbolçu bu barədə AZƏRTAC-a müsahibəsində deyib. O, vaxtilə futbolçu kimi Azərbaycan klublarından təklif aldığını bildirib: “Amma idman direktoru və ya məşqçi kimi hələ təklif almamışam. Türkiyədə və Azərbaycanda bu sahədə özümü sınamaq istərdim”.

Ermin Zets 2015-2016-cı illər mövsümündə “Qəbələ”nin formasını geyinib. “Qırmızı-qaralar”ın heyətində 32 oyuna çıxan 37 yaşlı keçmiş futbolçu 7 qolla yadda qalıb.

## Azərbaycan futzal millisinin heyəti açıqlanıb



Yanvarın 18-dən 24-dək Bakıda Azərbaycan millisinin təlim-məşq toplanışı olacaq.

Azərbaycan Futzal Federasiyasından AZƏRTAC-a bildirilib ki, baş məşqçi Yevgeni Kukseviç hazırlıq prosesinə 4-ü qapıçı olmaqla ümumilikdə 19 futzalçı dəvət edib. Yığma toplanış zamanı yanvarın 22-də və 24-də Bakı İdman Sarayında Danimarka yığması ilə yoldaşlıq oyunları keçirəcək.

Qapıçılar: Emin Kürdov, Rövşən Hüseynli (hər ikisi “Araz-Naxçıvan”), Cavad Məmmədov (“Baku Fire”), Kamran Hacıyev (“Neftçi” İK)

Oyunçular: Ədalət Ələkbərov, Nurlan Məmmədov, Qüdrət Qasımzadə, Ülvi Əliyev (hamısı “Araz-Naxçıvan”), Eldar Zeynalov, Fərid Abbasov, Kənan Manafov, Novruz Kazıxanov, Oktay Rüstəmli, Tofiq Mikayılov, Murad Quluzadə (hamısı “Baku Fire”), Emil Həsənzadə, Fərid Atakişiyev, Nihad İsmayılov, Tofiq Əliyev (hamısı “Neftçi” İK).


Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4511
Sifariş: 72
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova